

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Tarixi yaradan və yaşadan LİDER!**



8

# SƏS

№ 117 (6800)

7 iyul 2023-cü il.
Qiymәti 60 qәpik

## "İlham Əliyev: Fransa üzr istəməlidir!"



3

## Dünya mediası Qoşulmama Hərəkatının Bakı görüşündən yazır

# Ermənistanın vaxtı bitdi - Söz Azərbaycanındır!



5

## "Bakı görüşündə həyata keçirilən uğurlu siyasətin nəticələrinin şahidi olduq"



2

## İngilis ekspert: İslamafobiya Fransa cəmiyyətində möhkəm kök salıb



7

## Mobil bəla: hər yenilik bir sondur



15



6

## Milli Məclis 49 məsələni müzakirə etdi

## Ermənipərəstlikdən fransapərəstliyə



6

# “Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik edib”

## Prezident İlham Əliyev BMT-nin Cenevrədəki ofisinin baş direktorunu qəbul edib



İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanı qəbul edib. Tatyana Valovaya Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə BMT-ni təmsil etdiyinə görə məmnunluğunu bildirdi və Azərbaycanın Hərəkatda uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, BMT-nin Cenevrə ofisi və Cenevrədə ixtisaslaşmış BMT təşkilatları ilə ölkəmiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.

Tatyana Valovaya BMT-nin Qadınlar Davamlı İnkişaf Məqsədi üzrə təşəbbüsünün inkişaf etdirilməsində Azərbaycanın verdiyi dəstəyi yüksək qiymətləndirdi, Prezident İlham Əliyevin minaların təmizlənməsi üzrə yeni Dayanıqlı İnkişaf Məqsədinin yaradılması təşəbbüsünün çox dəyərli və vacib olduğunu vurğuladı. O, BMT çərçivəsində üzv dövlətlərlə birgə bu istiqamətdə müzakirə aparılmasının mümkünlüyünü və önəmini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi təşkilatın təsisatlanmasına və ölkəmizin multilateralizmə daim böyük əhəmiyyət verdiyini bildirdi, Hərəkatın təsisatlanması istiqamətində ölkəmiz tərəfindən aparılan işlərin, xüsusilə də Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması təşəbbüslərini qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində qadın platformasının yaradılması istiqamətində təşəbbüslə çıxış etdiyini vurğuladı. Azərbaycanın Ermənistan işğalından azad edilmiş torpaqlarımızın minalarla çirkləndirilməsi problemi ilə üzləşdiyini qeyd edən dövlətimizin başçısı minaların təmizlənməsinin də Dayanıqlı İnkişaf Məqsədi kimi təsbit olunmasının vacibliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təşəbbüsü ilə çıxış etdiyini və ölkəmizin humanitar minatəmizləmə sahəsində müasir texnologiyalardan səmərəli şəkildə istifadə etdiyini bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, 2020-ci il noyabrın 10-dan sonra 300-dən çox azərbaycanlı mina partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb.

Görüşdə BMT sistemində çalışan Azərbaycan vətəndaşlarının mövcud kvotalara uyğun olaraq sayının artırılması məsələsinin vacibliyi də müzakirə edildi.



# “Azərbaycan inkişaf etməkdə olan ölkələr üçün əsl nümunədir”

## Prezident İlham Əliyev Nepalın xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Nepal Federativ Demokratik Respublikasının xarici işlər naziri Narayan Prakaş Saudu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Bakının gözəlliyinin onu valeh etdiyini deyən Narayan Prakaş Saud Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qısa müddət ərzində böyük nailiyyətlər əldə etdiyini vurğuladı, Azərbaycanın inkişaf etməkdə olan ölkələr üçün nümunə olduğunu dedi. Nepalın xarici işlər naziri ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Nepallı tələbələrin Azərbaycanın təqdim etdiyi təqaüd proqramları çərçivəsində təhsil aldıqlarını deyən qonaq buna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Nepalın beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığını qeyd etdi, ölkələrimiz arasında münasibətlərin həmişə yaxşı olduğunu, lakin əlaqələri daha da genişləndirmək üçün böyük imkanların mövcudluğunu vurğuladı.

Dövlətimizin başçısı ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradıldığını dedi, hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində iş aparıldığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla həyata keçirilməsində göstərdiyi dəstəyə görə Nepala təşəkkürünü bildirdi.

Görüşdə ölkələrimiz arasında biznesin, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, bu xüsusda nümayəndə heyətlərinin mübadiləsi məsələləri müzakirə olundu.

# “Ölkələrimiz arasında tarixi əlaqələr var”

## Prezident İlham Əliyev Əlcəzairin xarici işlər və xaricdəki milli icma nazirini qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyev iyulun 6-da Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Əhməd Attafı qəbul edib. Əhməd Attaf Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlətimizin başçısına çatdırdı, Prezident İlham Əliyevin onun dəvəti ilə Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında xüsusi qonaq qismində iştirakına görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev salamlara və Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında iştiraka dəvətə görə Əlcəzair Prezidentinə təşəkkürünü bildirdi və onun da salamlarını Abdelmacid Tebbuna çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı, həmçinin Əlcəzair Prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi. Əhməd Attaf Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə, Hərəkatın təsisatlanması istiqamətində həyata keçirdiyi işlərə görə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı ölkələrimiz arasında tarixi əlaqələrin olduğunu qeyd etdi, Sovetlər Birliyi dövründə çox sayda azərbaycanlı mütəxəssisin Əlcəzairdə fəaliyyət göstərdiyini, bu ölkənin inkişafına öz töhfələrini verdiyini vurğuladı, eyni zamanda, həmin dövrdə Əlcəzairdən olan çox sayda tələbənin də Azərbaycanda təhsil aldığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının təsisatlanması çərçivəsində həyata keçirdiyi işlərdən danışdı, ölkəmizin təşəbbüsü ilə bu Hərəkatın gənclər təşkilatının və parlament şəbəkəsinin yaradıldığını dedi, Azərbaycanın, eyni zamanda, Qoşulmama Hərəkatı çərçivəsində qadın platformasının yaradılması təşəbbüsü ilə çıxış etdiyini, sədrlik dövründə bu istiqamətdə də müvafiq tədbirləri həyata keçirəcəyini vurğuladı.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin uğurla həyata keçirilməsində göstərdiyi dəstəyə görə Əlcəzair tərəfinə təşəkkürünü bildirdi. Görüşdə Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin OPEC+ formatında əməkdaşlıq məsələləri müzakirə olundu.

# “Bakı görüşündə həyata keçirilən uğurlu siyasətin nəticələrinin şahidi olduq"

“Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün açılışında müasir beynəlxalq münasibətlər sistemi kontekstində proqram xarakterli çıxışı tədbir iştirakçıları və dünya mətbuatında böyük marağa səbəb olub. Bu gün də çıxışlar zamanı həmin fikirlərə istinad olunmasına şahidlik etdik.”




bunu jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov söyləyib.

XİN başçısı qeyd edib ki, Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün ölkəmizdə keçirilməsi bütün nümayəndə heyətləri tərəfindən təqdir edilib. Onlar yaradılan şəraitə görə Azərbaycana təşəkkür ediblər.

”Bakı görüşündə həyata keçirilən uğurlu siyasətin nəticələrinin şahidi olduq”, - deyən Ceyhun Bayramov vurğulayıb ki, tədbirdə 100-ə yaxın ölkədən və 11 beynəlxalq təşkilatdan nümayəndələr iştirak ediblər.

# "İlham Əliyev: Fransa üzr istəməlidir!"

## Dünya mediası Qoşulmama Hərəkatının Bakı görüşündən yazır

**Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü dünya mediasının diqqət mərkəzində olub. AZƏRTAC xəbər verir ki, dünyanın müxtəlif ölkələrinin tanınmış KİV-lərində dərc olunmuş məqalələrdə qlobal səviyyədə yaşanan gərginliklərə baxmayaraq, Bakı keçirilən tədbirdə çoxsaylı ölkə nümayəndələrinin iştirakına, beynəlxalq ictimaiyyətə ünvanlanan mesajlara geniş yer verilib.**

Kubanın "www.plenglish.com" portalında yayımlanan xəbərdə Qoşulmama Hərəkatının "yeni ədalətli dünya nizamı uğrunda mübarizəsini davam etdirən ölkələrin ən böyük hərəkatı olduğu bildirilib. Qeyd edilib ki, Qoşulmama Hərəkatı 1961-ci ildə keçmiş Yuqoslaviyanın Belqrad şəhərində Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin prinsiplərinə əsaslanaraq ədalətli dünya nizamını müdafiə etmək üçün alternativ hərəkat olaraq yaradılıb.

"www.cubanews.acn.cu" portalında yayımlanan məqalədə isə Qoşulmama Hərəkatının siyasi məsləhətləşmələr və beynəlxalq gündəlikdəki digər aktual məsələlər üzrə mübadilə forumu kimi canlandırılması prosesində irəliləyişi davam etdirməyə, dialoqun, diplomatiyanın və dinc münasibətlərin təşviqinə imkan verəcəyi diqqətə çatdırılıb.

Əlcəzairin "al24news.com" saytında bildirilib ki, Azərbaycanın paytaxtı Bakıda keçirilən Qoşulmama Hərəkatının nazirlər görüşü "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusuna həsr olunub. Qoşulmama Hərəkatının sədri, Prezident İlham Əliyevin açılış sessiyasında "beynəlxalq təşkilatlar, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı artıq bəşəri ümidləri doğrultmur, ona görə də BMT qaçılmaz olaraq ciddi islahatlar aparmalıdır" barədə fikirləri oxuculara diqqətinə çatdırılıb.













Bildirilib ki, Prezident İlham Əliyev, həmçinin Qoşulmama Hərəkatına BMT Təhlükəsizlik Şurasında daimi yer verilməsinin zəruriliyini vurğulayaraq, bu mənada "Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına (İƏT) sədrlik edən ölkələrə və Afrika İttifaqı (Aİ) da növbə düsturuna uyğun və veto hüququna malik yerə sahib olmalı olduğunu bildirib.

Pakistanın "www.urdupoint.com" portalında isə Bakı görüşündə Malayziyanın xarici işlər naziri Zambri Abd Kadirin BMT-də ciddi islahatlara çağırış etdiyi bildirilib. Qeyd edilib ki, dünya ciddi problemlərlə üzləşdiyindən Birləşmiş Millətlər Təşkilatının effektiv olması üçün kritik islahatlardan keçməlidir.

Nazir, eyni zamanda, ölkəsinin İsveçdə Quranın yandırılması kimi nifrət dolu bəyanatların və hərəkətlərin dünyada artmasından narahat olduğunu söyləyib. Çinin "People's Daily" və Nikaraquanın "www.el19digital.com" portallarında qeyd olunur ki, Bakı görüşündə yeni dünya nizamı ilə bağlı məsələlər müzakirə olunacaq, yaranmış böhrandan çıxış yolları axtarılacaq.

İranın "ww.tasnimnews.com" və "mehrnews.com" saytlarında bu ölkənin xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşlər barədə məlumat verilib.Müzakirə olunan məsələlər arasında Azərbaycanın İrandakı səfirliyinə hücumda müqəssirlərin tapılması ilə bağlı görülən tədbirlər də müzakirə mövzusu olub.

"Shabestan" xəbər agentliyində isə Qoşulmama Hərəkatı haqqında məqalə dərc olunub. Yazıda bildirilib ki, Sammit Qoşulmama Hərəkatının ən yüksək toplantısı hesab olunur, adətən üç ildə bir dəfə üzv ölkələrdən birinin paytaxtında keçirilir. Budəfəki toplantının hazırda təsisata rəhbərlik edən Azərbaycanın paytaxtı Bakıda keçirildiyi bildirilib.

Misirin "Əxbar Əl Youm" nəşrinin AZƏRTAC-a istinadla dərc etdiyi "İlham Əliyev: Fransa üzr istəməlidir" sərlövhəli materialda qeyd olunub ki, Azərbaycan Prezidenti özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın hələ də digər ölkələrin daxili işlərinə qarışdığını, təəssüf ki, Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışdığını söyləyib.

Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışların getdikcə artdığını, bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulayıb. O əlavə edib ki, "bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik".

"Əl Əhəd" qəzetində "İlham Əliyev Fransanı Azərbaycanın daxili işlərinə müdaxilə etməkdə ittiham edib və Parisi üzr istəməyə çağırıb" sərlövhəli məqalədə qeyd olunub ki, Azərbaycanın dövlət başçısı neokolonializmi hələ də davam etdirən ölkələrdən biri olan Fransanın Avropadan kənarda idarə etdiyi ərazilərin fransız müstəmləkə imperiyasının iyrənc qalıqları olduğunu söyləyib. O vurğulayıb ki, Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Azərbaycanın dövlət başçısı, həmçinin Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairlini qətlə yetirdiyini, hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərinin müharibə qənimətləri kimi saxlanıldığını bildirib, bunu utancverici və iyrənc hərəkət adlandırıb. O, Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edib.

*Ardı Səh. 4*

# “İlham Əliyev: Fransa üzr istəməlidir!”

## Dünya mediası Qoşulmama Hərəkatının Bakı görüşündən yazır

Əvvəli Səh.3

Məqalədə qeyd olunub ki, Prezident İlham Əliyev Fransanı Azərbaycanın daxili işlərinə müdaxilə etməkdə ittiham edib, Parisin üzr istəməli olduğunu söyləyib, habelə bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin fransız polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulayıb.

Geniş oxucu auditoriyasına malik olan ”Dustur” nəşrində dərc olunan ”Prezident Əliyev Fransanı üzr istəməyə dəvət edib” sərlövhəli məqalədə qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Parisi həm Azərbaycanın daxili işlərinə kobudcasına müdaxilə etdiyinə, həm də neokolonializm, islamofobiya siyasətinə görə üzr istəməyə çağırıb. O, Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında vurğulayıb ki, Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır. Məqalədə dövlətimizin başçısının aşağıdakı sözləri sitat kimi verilib: ”Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək”.

”Əl Marsad”, ”Əl Həmra”, ”Pressbee”, SANA informasiya agentliyi, ”Yemen Publisher” və ərəb ölkələrinin digər qəzet və portalları da Azərbaycanın dövlət başçısının Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışına geniş yer ayırıblar.

Məqalədə xüsusi olaraq vurğulanıb ki, Prezident İlham Əliyev münaqişə başa çatdıqdan az sonra Azərbaycanın Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipi təqdim etdiyini deyib. O əlavə edib ki, Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərksilah edilməlidir.

Türkiyənin Anadolu, İHA informasiya agentlikləri, ”TRTWorld” telekanalı Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışını canlı yayımlayıb. Bundan başqa, ”Yeni Akit”, ”Yeni Şafak”, ”Akşam”, ”Haber com”, ”En son haber” və digər qəzet və xəbər portalları, həmçinin ”Haber Global”, ”OdaTV” telekanallarının saytları dövlətimizin başçısının irəli sürdüyü sülh prinsiplərini təqdim edib. Xəbərlərdə deyilir: ”Ermənistan silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxarılmalı, erməni hərbi və hərbiləşdirilmiş elementlərinin tərksilahı və tərxis olunması həyata keçirilməlidir”.

Geniş oxucu kütləsinə malik ”netgazeti.ge” portalında yayımlanan materialda isə bildirilir ki, Ermənistan silahlı qüvvələri Qarabağı tamamilə tərk etməlidir. Azərbaycan Prezidenti İlham Əliyev Qarabağ ərazisində qalan erməni hərbi birləşmələrini ərazini tamamilə tərk etməyə çağırıb.

Portal Azərbaycan Prezidentinin bu fikirlərini sitat gətirib: ”Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur edilməsinə baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində Ermənistan silahlı qüvvələrinin qalıqları hələ də mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda davamlı sülhün əldə olunmasında maraqlıdırsa, onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Erməni əsgərləri və hərbiləşdirilmiş birləşmələri tərksilah edilməlidir”.

Gürcüstanın İctimai Televiziyasında yayımlanan (1tv.ge) materialda Prezident İlham Əliyevin Fransada rəsmi şəxslərdən və parlamentarilərdən irqçi nifrət dili getdikcə daha çox eşidilməsi barədə fikirlərini yayıb. Bildirilib ki, Fransa müstəmləkəçilik keçmişinə və soyqırımı aktlarına görə üzr istəməlidir.

Saytda dərc olunmuş ”Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir” sərlövhəli materialda isə deyilir: ”Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdi, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirib”.

Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycanın indi bir sıra nəhəng çağırışlarla üz-üzə olduğunu söyləyən Azərbaycan Prezidenti vurğulayıb: ”Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir”.

Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşü və tədbirdə səsləndirilən fikirlərlə bağlı materiallar, eyni zamanda, Belarusun ”Belta”, ”Reform.by”, ”Eadaily.com” kimi eelektron media resurslarında da yayımlanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşündə çıxışı zamanı söylədiyi fikirləri ispandilli mətbuatın da diqqət mərkəzində olub.

”www.swissinfo.ch”, ”www.msn.com”, ”Deportes” kimi portallarda yayımlanan məqalələrdə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına (QHH) üzv olan dövlətləri neokolonializmlə mübarizə aparmağa çağırdığı, Fransanı irqçilikdə, soyqırımda və başqa ölkələrin işlərinə qarışmaqda ittiham edərək, neokolonializmin müasir dəstəkçilərindən biri olduğunu bildirdiyi vurğulanıb.

Portallarda dövlətimizin başçısının bu fikri sitat gətirilib: ”Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir”.

Azərbaycan Prezidenti qeyd edib ki, ”neokolonializm siyasətini indi də davam etdirən ölkələrdən biri də Fransadır”. ”Avropadan kənarda Fransanın idarə etdiyi ərazilər Fransa müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır”, - deyən Prezident İlham Əliyev rəsmi Parisin təxminən 1,5 milyon əlcəzairlinin qətlə yetirilməsinə, müstəmləkə keçmişinə və soyqırımı aktlarına görə üzr istəməli olduğunu bildirib.

O, həmçinin hazırda dünyada mövcud olan islamofobiya və ksenofobiya ilə bağlı narahatlığını ifadə edib.

Azərbaycan Prezidenti İlham Əliyev Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin fransız polisi tərəfindən öldürülməsini xatırladaraq əlavə edib ki bu hadisə ölkədə mövcud olan irqçilik və islamofobiyanın daha bir əlamətidir”.

Ermənistanla münaqişənin həllinə gəlincə, Prezident İlham Əliyev qeyd edib ki, 2020-ci il müharibəsi başa çatdıqdan sonra İrəvanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Azərbaycan ərazisində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var. O vurğulayıb ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhün əldə olunmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsini tamamilə tərk etməlidir.





Qardaş Türkiyənin ”Hürriyet” qəzetində dərc olunan ”Əliyev sülhün şərtlərini açıqladı: Ermənistan silahlı qüvvələrini Qarabağdan tamamilə çəkməlidir” sərlövhəli geniş məqalədə qeyd olunub ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında otuz il əvvəl Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdiyini, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirdiyini, bunun nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini qeyd edib. Azərbaycanın dövlət başçısı diqqətə çatdırıb: ”Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir. Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir. İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanlarından isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir. Altmış min hektar meşəlik məhv edilmiş, kəsilmiş və daşınmışdır, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərləndirilmişdir”.

”Milliyet” qəzetində isə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə iştirak edən Türkiyənin xarici işlər naziri Hakan Fidanın söylədiyi ”Qarabağda Azərbaycan torpaqlarının qaytarılmasını bütün Türk dünyasının Zəfəri kimi görürük” fikirlərinin sərlövhəyə çıxarıldığı məqalə dərc olunub.

Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun ”Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşündə söylədiyi fikirlər Gürcüstan mətbuatının da diqqət mərkəzində olub.

”İnterpressnews.ge” portalında dərc olunmuş materialda deyilir: ”Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsinin imzalanmasının beş əsas prinsipini təqdim edib. Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımalı olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhün əldə olunmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxarılmalıdır. Erməni hərbi və hərbiləşdirilmiş birləşmələri tərksilah edilməlidir”.

”İnterpress.ge” portalında AZƏRTAC-a istinadla yayımlanan materialda Azərbaycan Prezidentinin İslamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatlığı barədə məlumat verilir. Bildirilir ki, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəliyimizdə öndə duran məsələlər olmalıdır.

Həmin portalda yayımlanan digər materialda isə Ermənistanın Zəngəzur dəhlizinin açılmasına törətdiyi maneədən bəhs olunur. Bildirilir ki, Ermənistan, həmçinin təxminən 3 il əvvəl imzaladığı kapitulyasiya aktında yer almış digər öhdəliyi olan və Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına maneə yaradır.

Eyni zamanda, Azərbaycan Prezidentinin geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin İslamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatlığını ifadə etdiyi diqqətə çatdırılıb.

Qafqaztürk.com saytında yerləşdirilən materialda da Azərbaycan Prezidentinin islamofobiya ilə bağlı fikirləri yer alıb: ”Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması və təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir”.

# Ermənistanın vaxtı bitdi - Söz Azərbaycanındır!

Ermənistanın baş naziri Nikol Paşinyanın, eləcə də Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın, həmçinin, hökumət rəsmilərinin sərsəm bəyanatları bir reallığı ortaya çıxarır - onlar ölkəni daha ağır və çıxılmaz situasiyalara doğru sürükləyirlər. Daha bir fakt budur ki, Ermənistanın aşkar və gizli havadarlarının da Azərbaycana qarşı müxtəlif səpkilərdə təzyiq cəhdlərini reallaşdırmağa çalışmaları, əslində, mövcud situasiyanın get-gedə gərginləşməsinə səbəb olmaqdadır. Məsələn, Rusiyanın bu və ya digər şəkillərdə məlum cəhdləri, Fransanın senatında ərazi bütövlüyünə qarşı irəli sürülən bəndlər, amerikalı ermənipərəst senator R.Menendez başda olmaqla demokratların yuxarı palata üzərindən ölkəmizə qarşı təzyiq göstərmək cəhdləri və rəsmi Tehranın "Ermənistanın təhlükəsizliyi - İranın təhlükəsizliyidir" tipli siyasi gəvəzələmə amilləri bu məcrada ilin sonuna qədər imzalanacağı deyilən zərif sülh perspektivlərini dalana dirəməkdədir.



## İlham Əliyev: "Əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik, əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir"

O da əbəs deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən ilin noyabrında Avropa İttifaqının Şərq tərəfdaşlığı üzrə xüsusi nümayəndəsi Dirk Şubeli qəbul edərkən bu kimi həssas məsələlərə öz sərt mövqeyini bildirib və kifayət qədər mühüm bəyanatlarını irəli sürüb. Ölkə rəhbərimiz nümayəndə heyətini qəbul edərkən ABŞ-ın dövlət katibi Enntoni Blinkenlə telefon danışığı apardığını xatırladıb və bildirib ki, onlar (yəni, erməni tərəfi - A.T.) bizim ərazimizi və suverenliyimizi tanıdıqlarını söyləyirlər: "Onlar bunu nəinki deyir, o cümlədən Praqada və Soçidə bunun altında imza da atırlar. Eyni zamanda, onlar Azərbaycanda erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər. Bu, olmayacaq. Bu, mümkün deyil. Biz buna razılıq verməyəcəyik".

Məhz bu baxımdan, görüş zamanı diqqətçəkən daha bir məqam budur ki, Ermənistan tərəfi bir tərəfdən ərazi bütövlüyümüzü tanıdıqlarını bəyan edir, digər tərəfdən isə təxribatçı siyasətlərini həyata keçirmək cəhdləri ilə prosesə xələl vururlar, bu vasitə ilə sülhün əldə olunması mümkünlüyünə kəskin maneələr yaradırlar. Bu baxımdan da, dövlətimizin başçısı qeyd edib ki, bizə, yəni Azərbaycana Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır: "Mən bu yaxınlarda dedim ki, əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir. Otuz il bizdə sülh olmayıb və bunun sonunun necə olduğunu Ermənistan yaddan çıxarmamalıdır".

Daha bir məqam isə Vardanyan adlı Kreml layihəsi ilə bağlıdır ki, İlham Əliyev bu barədə də açıq və sərt şəkildə bəyan edib: "Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi Vardanyan kimi insanlarla yox".

Düzdür, Vardanyan, sadəcə, kukladır və onun heç bir əhəmiyyəti yoxdur. Ancaq Rusiyanın cəhdləri də, artıq həddin aşıldığını göstərir.

## Rəsmi Bakının qoyduğu bu müddət başa çatmaq üzrədir

Beləliklə, fakt budur ki, rəsmi Bakının qoyduğu bu müddət başa çatmaq üzrədir. Ermənistan və havadarları həmin məqamı xüsusi ilə diqqətə almalı və Cənubi Qafqaz regionunda yarana biləcək sülhün yenidən müharibə ilə əvəzlənməsinə şərait yaratmamalıdırlar. Belə bir məqamda digər nüanslar da üzə çıxır: Sülh olmayacaqsa, müharibə faktoru qabarmağa başlayır. Rəsmi Bakı, ilk növbədə, Laçında gömrük yoxlama, yaxud nəzarət-buraxılış məntəqəsini yerləşdirib. Bunun üzərindən hələ də Qarabağda qalan qanunsuz erməni silahlı birləşmələri Azərbaycan ərazilərini dərhal tərk etməlidirlər. Yaxud, onlara qarşı Qisas 3 əməliyyatlarının keçirilməsi zərurətə çevriləcək. Hansı ki, Ermənistanın baş naziri Nikol Paşinyan indinin özündə də bəyan edir ki, guya Qarabağda Ermənistan silahlı qüvvələrinə məxsus hər hansı bir hərbi birləşmələr mövcud deyil və s. Ancaq antiterror əməliyyatlarından sonra, yeni erməni zinvorlarının sink tabutlarının haraya aparılacağından məlum olacaq ki, onlar hansı ölkənin terrorçularıdırlar. O cümlədən, həyata keçirilən antiterror əməliyyatlarının nəticəsində də sübut ediləcək ki, Ermənistan 44 günlük müharibədən sonra da Azərbaycanın ərazilərində işğalçılıq siyasətini davam etdirib. Bunu Prezident İlham Əliyev də bəyan edib ki, hələ də işğal altında qalan ərazilərimiz var. Bu ərazilər yalnız Qarabağda deyil, həm də Qazax rayonunun 7 kəndinə və Naxçıvandakı Kərki kəndinə aiddir.

## Ermənistan əvvəl-axır dərk etməlidir ki, Azərbaycanın atdığı addımlar yeni və indikindən də fərqli geosiyasi reallıq yaradacaq, söz yox ki, rəsmi Bakının xeyrinə!

Azərbaycanın əlində daha bir rıçaq var - Ermənistandan Qarabağa gedən qanunsuz kommunikasiya xətlərinin fəaliyyətlərinin dayandırılması. Məhz Ermənistanı Qarabağda bütün təsir vasitələrindən məhrum etdikdən sonra (qaz, işıq, internet) Bakı və İrəvan ikitərəfli əsasda və ya istənilən üçüncü tərəfin vasitəçiliyi ilə danışıqları davam etdirə bilərlər. Bununla belə, Ermənistan əvvəl-axır dərk etməlidir ki, Azərbaycanın atdığı addımlar yeni və indikindən də fərqli geosiyasi reallıq yaradacaq, əlbəttə ki, rəsmi Bakının xeyrinə! Azərbaycan Prezidenti İlham Əliyevin ölkə TV-lərinə verdiyi müsahibəsində bildirdiyi kimi: "Bizim xoşniyyətli davranışımız əbədi olmayacaq və verdiyimiz təkliflər əbədi masa üzərində qalmayacaqdır".



Təbii ki, Azərbaycanın da öz növbəsində digər tələbləri qüvvədə qalmaqdadır. Məsələn, Ermənistanın Azərbaycan ərazilərini 30 il işğal altında saxladığını etiraf etməsi Bakının İrəvandan haqlı olaraq kompensasiya tələb etməsi ilə nəticələnəcək. Ermənistan ya tələb edilən müəyyən olunmuş miqdarı Azərbaycana təhvil verməli, yaxud bunu əraziləri vasitəsi ilə kompensasiya etməlidir. Yəni mümkün ehtimallar belədir - yeni tələblər kompensasiya, işğal faktının etiraf edilməsi və Ermənistana mümkün ərazi iddiaları ola bilər. Beləliklə, seçim Ermənistanındır və həmin seçimin edilməsinə çox az vaxt qalıb. Yeni müharibənin baş verməməsi, "Yerablur" hərbi məzarlığının paytaxt İrəvanın içinə doğru genişlənməməsi üçün hələ ki, doğru seçim etməyə zaman tanınmaqdadır. Ancaq verilən zaman da sürətlə ötüb-keçir və Ermənistanın rəhbərliyi bu reallığı da əvvəl-axır dərk etmək məcburiyyətindədir.

***Afət Tahirqızı***

# Milli Məclis 49 məsələni müzakirə etdi

## Qəbul edilən yeni qanun layihələri nə vəd edir?



Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti iclası keçirilib. Gündəliyin təsdiqindən sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Müzakirələrdə komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Ceyhun Məmmədov, Elşad Mirbəşiroğlu, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Vahid Əhmədov, Fazil Mustafa, Kamal Cəfərov, Musa Qasımlı çıxış ediblər.

Milli Məclisin deputatları çıxışlarında Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən görüşündə söylədiyi nitqini yüksək dəyərləndiriblər.

Deputatlar dövlətimizin başçısının Fransanın neokolonializm siyasəti, Fransada irqçilik meyllərinin, milli azlıqlara qarşı təzyiqlərin artması ilə bağlı tənqidi fikirlərini dəstəkləyib, Qərbdə irqçi və islamofob meyillərin artmasından narahatlıqlarını ifadə ediblər.

Azərbaycan Prezidentinin BMT Təhlükəsizlik Şurasında islahatların keçirilməsi ilə bağlı fikirlərini yüksək qiymətləndirən deputatlar Qoşulmama Hərəkatının sədri İlham Əliyevin nitqini yeni dünya düzənində qlobal məqsəd və hədəflərə doğru birgə fəaliyyət üçün yol xəritəsi kimi xarakterizə ediblər. Sonra Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasda 49 məsələ müzakirəyə çıxarılıb.

Birinci məsələ - "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsi məlumatı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli verib. Bildirilib ki, sənədin icrası qardaş ölkə ilə ticarət dövriyyəsinin artırılması istiqamətində hədəflərin gerçəkləşməsinə töhfə verəcək. Layihə səsə qoyularaq qəbul edilib. Sonra Sahibə Qafarova bildirib ki, gündəliyin ikinci məsələsindən başlayaraq növbəti 37 qanun layihəsi Prezidentin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-birinə bağlıdır. Diqqətə çatdırılıb ki, bu 37 məsələdən 26-sına İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb.

Layihələrlə bağlı danışan Əli Məsimli bildirib ki, qanun layihələrinin birinci və ikinci oxunuşlarında ətraflı məlumat verilib. Eyni zamanda, müzakirələrdə deputatların qaldırdıqları məsələlərə Mərkəzi Bank tərəfindən ətraflı aydınlıq gətirilib. Vurğulanıb ki, təklif olunan dəyişikliklərin qəbulu nəticəsində Mərkəzi Bankın funksiyalarının daha səmərəli həyata keçirilməsi üçün çox etibarlı hüquqi zəmin yaranacaq.

Komitədə baxılan və bir oxunuşdan keçən "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Reklam haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Büdcə sistemi haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri isə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov üçüncü oxunuşda olan Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Publik hüquqi şəxslər haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "İcra haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə əlaqədar bildirib ki, məsələlərə dair əvvəlki oxunuşlarda ətraflı məlumat verilib və sənədlərlə bağlı komitəyə heç bir irad və təklif daxil olmayıb.

Gündəliyin 19-cu məsələsi - "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verən Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov layihənin ikinci oxunuşundan sonra komitəyə heç bir irad və təklif daxil olmadığını bildirib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev 32-ci məsələ ilə bağlı bildirib ki, Aqrar sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə təklif olunan dəyişikliklərə əsasən, "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz olunur.

Əli Məsimli təqdim edilən son 11 qanun layihəsi barədə komitənin müsbət rəyini diqqətə çatdırandan sonra müzakirəyə təqdim olunan 37 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Daha sonra ikinci oxunuşda olan 11 qanun layihəsinə baxılıb. Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Dərman vasitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Deputatlar Rəşad Mahmudov, Fəzail Ağamalı, Vahid Əhmədov, Hikmət Məmmədov məsələ barədə öz fikirlərini və bəzi qeydlərini açıqlayıblar.

Komitə sədri Əhliman Əmiraslanov, səhiyyə nazirinin müavini Rasim İsmayılov qaldırılan məsələlərə aydınlıq gətiriblər Sonra Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində və "Konstitusiya Məhkəməsi haqqında" Qanunda dəyişiklik edilməsi haqqında qanun layihələrini (ikinci oxunuş) diqqətə çatdırıb.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib. Hər dörd qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Parlamentin sədri Sahibə Qafarova növbəti 3 məsələnin də yeni medalların təsis edilməsi ilə bağlı olduğunu və ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu deyib.

Nizami Səfərov "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi, "Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi və "Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri barədə də məlumatı diqqətə çatdırıb.

O, bu qanun layihələri ilə bağlı birinci oxunuşda geniş məlumat verildiyini, məsələyə dair heç bir sual və təklifin olmadığını deyib. Deputat Sahib Alıyev məsələ barədə fikirlərini səsləndirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanun layihəsini təqdim edib. Bildirilib ki, sənəd innovativ onlayn və mobil ödənişlərin inkişafının daha etibarlı və təhlükəsiz fəaliyyətini, istehlakçıların daha etibarlı müdafiəsini təmin edəcək.

9 fəsil, 68 maddədən ibarət qanun layihəsi ödəniş sistemlərinin, ödəniş xidmətlərinin, ödəniş təşkilatlarının, elektron pul təşkilatlarının və ödəniş sistemi operatorlarının fəaliyyətinin hüquqi əsaslarını və bu sahədə tənzimləmə və nəzarətin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir. Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sahibə Qafarova gündəliyin son iki məsələsinin Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib. Əli Məsimli "Dövlət satınalmaları haqqında" və Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri barədə məlumat verib. Diqqətə çatdırılıb ki, 10 fəsil, 59 maddədən ibarət "Dövlət satınalmaları haqqında" qanun layihəsi həm yerli, həm də beynəlxalq təcrübəyə əsasən mükəmməl şəkildə hazırlanıb. Sənəd dövlət satınalmalarının iqtisadi, hüquqi və təşkilati əsaslarını və qaydalarını müəyyən edir.

Deputat bildirib ki, adları çəkilən qanunlara "Dövlət satınalmaları haqqında" yeni qanun layihəsi ilə əlaqədar uyğunlaşdırma xarakterli bəzi düzəlişlər təklif olunur. Deputat Aydın Hüseynov məsələ ilə bağlı bəzi fikirlərini səsləndirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

# Ermənipərəstlikdən fransapərəstliyə

*Fransa haqda deyilənlər Tofiq Yaqublunun qəlbinə necə toxunubsa...*

İnsan bəzən nə deyəcəyini, nədən başlayacağını müəyyən edə bilmir. Vətəndaş da Vətəninə asi olar? Kimdənsə acıq çıxmaq niyyəti ilə ölkəni, milləti, xalqı iki qəpiyə satmaq, sonra da "haqq-ədalət tərəfdarıyam" deyə qürrələnmək yalnız xainlərin, satqınların işidir. İbtidai-icma quruluşundan tutmuş bu günümüzə qədər bütün ölkələrdə, toplumlarda, lap elə separatçı qurumlarda, dünyanın ən demokratik ölkələrində belə məxluqlara qarşı bir cəza üsulu var, o da dəmir barmaqlıqlar arasında çürümək. Sovet hakimiyyəti illərində və bu günümüzün ABŞ, Rusiya, Çin, Hindistan, Braziliya və sadalamadığımız onlarla ölkəsində belə satqınları dəhlizlərin qaranlıq yerində, gözdən-könüldən uzaq, insan ayağı dəyməyən yerlərdə kafasına kurşun sıxırlar. Çünki bu cəza yalnız o cinayətlərin qarşılığında verilir. Yoxsa Vətən kartof-soğan deyil ki, hər gələn piştaxtaya qoyub sata...



Qondarma demokratiya oyunu ölkəmizə ayaq açandan Azərbaycanı satan, satmaq istəyən və artıq hərracda alıcısını gözləyən bir sürü məxluqat, ikiayaqlı peyda olub. Öncədən bir məsələni ərz etməyi özümə borc bilirəm ki, bu sətirləri oxuyan bəziləri elə başa düşməsin ki, demokratiyanı qəbul etmirik, yaxud da bu ifadənin altındakı mənanı bilmirik. Yox, təəssüf ki, elə həmin zat-ların sayəsində demokratiya öz mənasını itirib. Özünü müxalifət pərdəsi altında gizləyərək Vətəni satanlar həbs olunub cəzalandırılsa da, etdiyi cinayəti ört-basdır etmək üçün guya müstəqil düşündüyünə, "demokratiya" rəngində olduğuna görə təqib edildiyini deyirlər. Bunlar beynəlxalq qurumlarla, bəzi dövlətlərlə birgə demokratiya üzərində o qədər oyun qurublar ki, nəticədə "demos" - xalq və kratos - hakimiyyət söz birləşməsi başqa məna kəsb etməyə başlayıb. Bir sözlə, Azərbaycanda da demokratiya, insan haqları və söz azadlığı ifadələrini tərsinə oxuyanlar da az deyil. Onlardan biri haqda daha ətraflı danışmaq niyyətindəyəm.

Hərşeyşünas demək istədim, gördüm ki, bu sözə iddialılar kifayət qədər abırlı adamlardır, Tofiq Yaqublunun yanında. Bu adam isə başının ölçüsünü bilmir, hara gəldi, necə gəldi dürtür. Qandı-qanmadı, bildi-bilmədi hər yerdən danışır. Həm də mövzu milli maraqlardan, dövlətçilikdən düşəndə Tofiq Yaqublu "fırt" eləyib düşür meydana. Bu gün də belə olub. Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Bakıda baş tutan tədbirində çıxış edərək 30 illik münaqişənin ilk günündən Ermənistanın yanında olan, ədalətsiz müharibədə İrəvana hər cür dəstək göstərən Fransanı, onun indiki marionet lideri Makronu haqlı olaraq tənqid edib. Afrikada, Yaxın Şərqdə, Asiyada, Okeaniya adalarında törətdiyi soyqırımlara, xalqlara qarşı etdiyi vandallıqlara görə ittiham və Fransadan üzr istəməsini tələb edib. Qoşulmama Hərəkatının bütün üzv ölkələri, müşahidəçi qismində iştirak edən dövlətlər İlham Əliyevin fikirləri ilə həmrəy olduqlarını çıxışlarında, açıqlamalarında ifadə ediblər. Amma bütün bunları görməzdən gələn, indiyədək erməniperəst, indi isə fransapərəst Tofiq "bəy"cikdən savayı. Yuxarıda elə bundan danışırdıq, hərşeyşünaslıqdan. Fransa haqda deyilənlər Tofiq Yaqublunun qəlbinə necə toxunubsa, verdiyi reaksiya adamın matını-mutunu quruyur. İnsan nə qədər kibirli olarmış? Şeytanla dostluq etmək buna deyərlər.

İnanın, bu gün "satqın", "xəyanət", "erməniperəst" damğası da təsir gücünü itirib. Əvvəllər bu yarlığı kimə vurmaq yox, göstərsəydilər əti üşənərdi, bu sözün ona şamil edilməməsi üçün həyatından keçərdi. Çünki bu ifadənin çəkisi çox ağırdır, insanı əzib keçəcək gücdədir. Bu gün isə o sözləri sinələrinə döydürmək üçün sıraya düzülənlər var. Niyə? Çünki bu insanda az rast gəlinən, amma bəzilərinə asan üzə çıxan xislət, xarakterdir. Tofiq Yaqublu Prezidentin Fransanı tənqid etməsinə dözə bilmir, Makrona qarşı ittihamı özünə qarşı həqarət sayır, yəni kimin tərəfində olduğunu açıq şriftlərlə hər kəsin diqqətinə çatdırır. Bəs onda bunun adı nədir? Dövlətçilikmi, Vətənə sevgimi, milli maraqmı? Yox, bunların heç biri deyil. Bunun adı SATQINÇILIQdır, XƏYANƏTdir.

Gələk Tofiq Yaqublunun yazdıqlarına. Deyir, Azərbaycan Prezidenti Fransadan qabaq Rusiyanın XIX əsrdə Gəncənin işğalı zamanı törətdiklərindən danışsın. Mən deyəndə ki, bu adamdan heç nə çıxmaz, dostlar mənə iradfason tuturdular. İndi mən yox, Yaqublunun özü sübut edir ki, onun başı əməllicə qaçıb. Nə dediyini özü də anlamır. Rusiya imperiyasının törətdiklərini, cinayətlərini kim danır? Əgər Qoşulmama Hərəkatının tədbirində mövzu Fransadırsa, burada Rusiyadan danışmağa nə lüzum var? Hər hadisə haqqında müzakirələrin aparılacağı bir məkan olur. Əgər sözü həmin məkanda və zamanında deməsin, yaxud müzakirəyə dəxli olmayan mövzulara toxundun, deməli, sənin nə siyasətin, nə də dünyagörüşün var. Məkan, zaman məsələsini yalnız ağıllı siyasətçilər, milli maraqlardan çıxış edən liderlər bilər. Yaqublu kimi siyasət dəllalları, təlxəklər bundan anlamazlar. Əslində, burada fəlsəfə axtarmağa da ehtiyac yoxdur. Sadəcə, Yaqublu bu mövqeyi ilə Fransaya açıq dəstək verir ki, Parisdən gələn ianələr kəsilməsin.

Yaqublu məgər Fransanın Ermənistan sevgisindən bixəbərdir. Məgər bilmir ki, Azərbaycan torpaqlarını 28 il işğal altında saxlamaq cəsarətini ermənilər Fransadan alıb, Paris ATƏT-in Minsk qrupunun həmsədri kimi bu işğalı legitimləşdirməyə çalışıb? Bəs onda Tofiq Yaqublunu Fransanı müdafiə etməyə nə vadar edir? Kimsə deməsin ki, o bunu hakimiyyətin acığına edir. Bu, lap pis. Sən, Yaqublu, Azərbaycanın bugünkü inkişafında daşı o birinin üstünə qoymusanmı? "Yox"dan başqa verəcəyin cavab yoxdur, bilirəm. Sənin səsin quruculuq meydanlarından yox, daim təxribat meydanlarından gəlib. Qanunsuz aksiyalarda iştirakından yalnız avropalı dostların qazanc götürüblər. Sənin özünü döydürməyin onların karına gəlib. Bunu da Azərbaycana qarşı istifadə etmək üçün. Qabağına bir iki qəpik atıblar ki, ölkənə, Vətəninə asiliyin bir az da dərinləşsin. İnsafən, bunu bacarıblar, səndən bir marionet kimi istifadə ediblər.

Yəqin ki, yadınızdadır, ötən ilin sentyabr ayında erməni ordusunun təxribatı nəticəsində 79 şəhid verdik. Əvəzində ermənilər özlərinin yüzlərlə leşini səngərlərdən yığmalı oldular. Azərbaycan revanş savaşına qalxmaq istəyən Ermənistana əsl dərs verdi. Bundan Ermənistanın narahat olduğunu hər kəs gördü, hətta işğalçı ölkə bir müddət özünə gələ bilmədi, sanki komaya düşmüşdü. Bir gün keçdi və bizim içimizdəki satqınların ifasında əsl mərəkə başlandı. Avropadan Fransa, Fransadan "siyasi miqrantlar", Azərbaycanda isə tofiqkimilər, əlikimilər, uzaq Amerikadan sevinckimilər yaxalarını cırmağa, ordumuzu guya "suveren Ermənistan"ın ərazilərinə qanunsuz girməkdə suçladılar. Bu ittihamı nə amerikalı, nə alman, nə fransız, nə də erməni irəli sürürdü, bunu bizim içimizdəkilər, xaricdəki söyüş mütəxəssisləri, fransızın, almanın, niderlandlının ayaqyolunu təmizləyib iyindən həzz alanlar deyirdilər. Adamı öldürən də bu dərddir.

İndi Tofiqin fransızsayağı sərgüzəştlərinə nə ad verək, bu adama necə haqq qazandıraq? Necə deyək ki, Yaqublu statusunda bunları yazanda Ermənistanın böyük bacısı olan Fransanı dəstəkləmək fikrindən uzaqdır. Bu adam açıq, həm də nümayişkaranə şəkildə Makronlu Fransanı arxasına şələləyir. Nə deyirik, Allah qüvvət versin.

**V.SALAH**

# "Ölkəmiz üzvü olduğu beynəlxalq təşkilatların fəaliyyətində aktiv iştirak edir"



"Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq mühüm yer tutur. Milli maraqlara söykənən xarici siyasət kursu nəticəsində Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən etibarlı tərəfdaş qismində qəbul olunmaqdadır. Ölkəmiz üzvü olduğu beynəlxalq təşkilatların fəaliyyətində aktiv iştirak edir, təşkilat daxili münasibətlərin daha da genişlənməsinə, əməkdaşlığın inkişaf etdirilməsinə töhfələrini verir. Bu mənada, ölkəmizin hazırda sədri olduğu Qoşulmama Hərəkatına üzv dövlətlər ilə münasibətləri yüksək səviyyədədir. Azərbaycan Prezidenti İlham Əliyev iyulun 5-də Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə çıxışı zamanı bu beynəlxalq platforma çərçivəsində əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayıb". Bu fikirləri SİA-ya Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Millət vəkilinin sözlərinə görə, 2011-ci ilin may ayında Qoşulmama Hərəkatına üzv seçildikdən sonra Azərbaycanın təşkilatın işində daim fəal iştirak etdiyini diqqətə çatdıran deputatın sözlərinə görə, məhz bu fəallığın nəticəsidir ki, Azərbaycan Respublikası 2019-cu ilin 25-26 oktyabrında Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi edib: "BMT-nin 120 üzv dövlətinin yüksək səviyyəli nümayəndələrinin, o cümlədən 42 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Hərəkata sədrlik 2019-2022-ci illər üzrə Azərbaycan Respublikasına keçib. Azərbaycanın 3 il müddətinə bu təşkilata sədr seçilməsi, şübhəsiz ki, diplomatiyamızın növbəti qələbəsi olub. Daha sonra ölkəmizin təşkilata sədrliyi bir il də uzadılıb. Qoşulmama Hərəkatının Sədri İlham Əliyev Azərbaycanın sədrlik zamanı öz prioritetlərini və fəaliyyətini bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən tarixi Bandunq prinsipləri üzərində quracağını bildirmişdi. Dövlətimizin başçısı Azərbaycanın sədrlik dövründə Hərəkat üzvlərinin maraqlarını müdafiə edəcəyini, digər təsisatlarla dialoq quracağını və inkişaf etdirəcəyini bəyan etmişdi. Həqiqətən də, dövlətimiz Qoşulmama Hərəkatının sədri kimi öz üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

Azərbaycanın təşkilata rəhbərliyinin böyük hissəsi "COVİD-19" pandemiyası dövrünə təsadüf edib. Pandemiya ilə bağlı Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi bir sıra beynəlxalq təşəbbüslərlə çıxış edib və həmin təşəbbüslər beynəlxalq birlik tərəfindən dəstəklənib. Bunun nəticəsi olaraq BMT Baş Assambleyasında bir sıra sənədlər qəbul olunub. Bakıda keçirilən nazirlər görüşündə çıxışı zamanı Prezident İlham Əliyevin dediyi kimi, beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, misli görünməmiş bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu: "2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə təşkil edilmiş Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə nəticələndi. Bundan əlavə, Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən "peyvənd millətçiliyi"nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyinə dəlalət edir".

Sevinc Fətəliyeva sözlərinə davam edərək qeyd edib ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatı da yaradılıb: "Hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində iş gedir. Dövlətimizin başçısı çıxışında Azərbaycanın neokolonializm meyillərinin artmasından da narahat olduğunu bildirib. Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir. Cənab Prezidentin dediyi kimi, neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır: "Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Prezident İlham Əliyev çıxışında regionumuzda vəziyyət barədə də fikirlərini ifadə edib. "Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir", -deyən dövlətimizin başçısının vurğuladığı kimi, Ermənistan, həmçinin təxminən 3 il əvvəl imzaladığı kapitulyasiya aktında yer almış digər öhdəliyi olan və Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına mane olur. Bütün bunlar isə regionumuzda sülh və təhlükəsizliyin təmin olunmasının qarşısını alır. Azərbaycan bölgədə sülhün təmin olunması üçün qətiyyətli siyasətini davam etdirəcək və bu prosesdə beynəlxalq platformaların imkanlarından istifadə edəcək".

*Ləman Sərraf*

Şərh

İngilis ekspert:

# İslamafobiya Fransa cəmiyyətində möhkəm kök salıb

**Fransadakı islamafobiya meyilləri ilə bağlı caliber.az-ın ingilis versiyasında məqalə dərc olunub. Həmin materialın tərcüməsini oxucularımızın diqqətinə çatdırırıq.**

Fransada türkofob və islamafob hisslər çoxdan hökm sürür. Bunlar boş sözlər deyil, Makron rejiminin reallığıdır, Azərbaycanın Parisdəki səfirliyinə hücum, bu yaxınlarda çəkiliş aparan Azərbaycan Dövlət Televiziyasının (AzTv) əməkdaşlarına hücum, jurnalistlərin yaralanması, avadanlıqların ələ keçirilməsi və məhv edilməsi, silahla təhdidlər və sair hadisələrdir.

Əlcəzair əsilli 17 yaşlı, silahı olmayan və müqavimət göstərməyən yeniyetmənin Fransa polisi tərəfindən vəhşicəsinə qətlə yetirilməsi Fransanın yeni müstəmləkəçilik siyasətinin növbəti nümunəsidir.



Britaniyalı jurnalist Nil Vatson sayta verdiyi şərhində Fransada baş verən hadisələrdən danışaraq qeyd edir ki, istənilən ziyarətçi ölkədə iki səviyyəli cəmiyyətin olduğunu, orada maqriblərin (Şimali Afrikada yerləşən ölkələrin sakinləri) yaşadığını dərhal anlayır və bilir ki, onlar dövlət səviyyəsində ayrı-seçkiliyə məruz qalır və Fransa əhalisinin böyük hissəsi ilə az əlaqə saxlayır.

Britaniyalı jurnalist hesab edir ki, islamafobiya Fransa cəmiyyətində o qədər kök salıb ki, əslində Makrona kömək edir. "Bunu anlamaq üçün son prezident seçkilərində ifrat sağçı Milli Birlik Partiyasının güclənməsinə diqqət yetirmək kifayətdir.



Heç kimə sirr deyil ki, Makron ermənipərəst siyasət yürüdür və bu yaxınlarda erməni millətçiləri, o cümlədən millətçi Daşnaksütyun partiyasının üzvü Murad Papazyanla görüşü bunu sübut edir.

Fransa prezidenti Marseldəki görüşdə Ermənistana sadiqliyini vurğulayıb. Watson qeyd edib ki,




burada Makron ona və Fransaya faydalı olduğuna inandığı şeyi edir. "İslamafobiya seçki hüququndan istifadə edən Fransa əhalisi üçün olduqca məqbuldur. Maqribiyalıların əksəriyyəti özünü gücsüz hiss edir və səs vermir. Ermənilər Fransa siyasətində, mediasında və biznesində kök salıblar. Onların türkofobik mövqeyi Fransada adi haldır və bu, Azərbaycana da aiddir".

Fransa Senatında Azərbaycan əleyhinə bir çox qətnamələr təklif olundu, baxmayaraq ki, onların hamısı qəbul olunmadı. "Mən inanıram ki, Makron ermənipərəst seçicilərinə qarşı səmimidir",- deyə o, yekunlaşdırıb.

ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza Fransadakı erməni diasporuna görə Makronun ermənipərəst olduğunu təsdiqləyib. "Düşünürəm ki, o, Azərbaycan və Ermənistan arasında sülh sazişini səmimiyyətlə istəyir, lakin o, həmişə Yerevana daha çox meyil edəcək",- Brayza əlavə edib.

Bundan əlavə, diplomat qeyd edib ki, Makron tam olaraq türklərə qarşıdır. Bu, 2020-ci ilin yayında Yunanıstan və Türkiyə arasında gərginliyin yarandığı vaxt özünü büruzə verdi.

"Fransa prezidenti olaraq o, mədəniyyət baxımından həmişə İslamdan çox xristianlığa meylli olacaq, lakin bu, onun islamafobi olması demək deyil, sadəcə olaraq, Fransa siyasətində xristianlığa çox vaxt xüsusi önəm verilir",- o vurğulayıb. Bununla belə o, Türkiyənin Aİ-yə daxil olub-olmaması ilə bağlı müzakirələr kontekstində Avropa mədəniyyətinin xristianlıq üzərində qurulduğunu deyən Valeri Jiskar d'Estennin (Fransa Respublikasının 20-ci prezidenti) sözlərini də xatırladıb. "Mən inanıram ki, Makron da oxşar düşüncə tərzindən gəlir",- deyə o, yekunlaşdırıb.

*Tərcümə - Elçin Bayramlı*

# Heydər Əliyev-100

# Tarixi yaradan və yaşadan LİDER!

Bugünkü dünya miqyasında tanınan və qəbul edilən güclü Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir. Aylar illəri əvəz etdikcə Azərbaycan daha da inkişaf edəcək və Dahi Öndərimiz Heydər Əliyevin qeyd etdiyi kimi dünyaya günəş kimi doğacaq. Lakin bir həqiqət var ki, bugünkü qüdrətli Azərbaycan çətin, ağır dövr keçməklə qürurverici uğurlara imza atıb. Ötən əsrin 90-cı illərin əvvəlində Azərbaycanda hər bir sahədə hərcmərclik, özbaşınalıq, xaos, dövlət idarəçiliyində hakimiyyət uğrunda mübarizə, siyasi çəkişmələr hökm sürürdü. Bu kimi xaos və anarxiyadan, hakimiyyət uğrunda savaşın aparılmasından istifadə edən Ermənistan ardıcıl olaraq torpaqlarını işğal edirdi. Artıq vəziyyət o qədər çətin və ağır həddə çatmışdır ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycanı belə çətin vəziyyətdən xilas etmək üçün yeni bir siyasi təşkilatın yaradılması mütləq tarixi zərurətə çevrilmişdi. Hər zaman olduğu kimi, bu dəfə də Azərbaycan xalqının ümid yeri Ulu Öndərimiz Heydər Əliyev idi. Məhz bu məqsədlə 1992-ci il oktyabr ayının 16-da 91 nəfər Azərbaycan ziyalısı yeni bir siyasi partiyanın yaradılması təşəbbüsü ilə Dahi Öndərimiz Heydər Əliyev dühasına xüsusi müraciət ünvanladı.



## Xalqa arxalanıb, Azərbaycan dövlətini quran LİDER

Ümummilli Liderimiz Heydər Əliyev xalqın çağırışlarına səs verərək müraciəti qəbul etdi və Yeni Azərbaycan Partiyasının yaradılmasına, onun Sədri olmağa razılıq verdi. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin Sədrliyi ilə keçirilmiş təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Bununla da ölkəmizin həyatında yeni və sürətli inkşaf dövrünün əsası qoyuldu.Yeni Azərbaycan Partiyası yarandığı zamanda müxalifət partiyası olmasına baxmayarq böyük siyasətçi Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında xalqın sevgisini, inamını qazanaraq qısa müddət ərzində iqtidar partiyasına çevrildi. Ulu Öndər Heydər Əliyevin yenidən Azərbaycana rəhbərliyə qayıdışı ölkəmizdə böyük uğurların əsası qoyuldu. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində milli ordu yaradıldı, sosial-iqtisadi inkişafa, möhkəm əsaslara söykənən sabitliyə nail olundu. Aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdə mövqeləri möhkəmləndi. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi dahi öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bu akt öz növbəsində siyasi fəaliyyət və inkişafın hüquqi əsaslarının formalaşması mənasına gəlirdi. Daha sonra parlament seçkilərinin keçirilməsi dövlətçiliyin siyasi-hüquqi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verdi. Bu proseslərə paralel olaraq vətəndaş cəmiyyətinin formalaşdırılması və hüquqi dövlətin fundamental komponentlərinin mütləq surətdə bərqərar olunması yönündə əhəmiyyətli addımlar atıldı.



*Namik Əhmədov,*
*Yeni Azərbaycan Pariyası Xəzər rayon təşkilatının sədri*





## İnsanlığa xidmət edən bəşəri siyasət

Ulu öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (Ombudsman) təsisatı yaradıldı. Bütün bunlar isə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini və gücləndirilməsi istiqamətində əhəmiyyətli faktor kimi çıxış etdi. Ulu öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılmasını hüquqi əsasda təsbit etmiş oldu. 1993-cü ildən Ulu öndərin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu. Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri də Cənab İlham Əliyev kimi uzaqgörən, müdrik, dahi siyasətçi yetişdirməsi olmuşdur. Məhz möhtərəm Prezidentimiz İlham Əliyev Dahi Öndərimiz Heydər Əliyevin bütün etimad və etibarını tamlıqla doğrultmuşdur. Ulu Öndərimizin başlatdığı bütün işləri yüksək səviyyədə davam etdirmiş, qarşıya qoyulmuş hədəflərə çatdırmış, Azərbaycanı dünyada öz gücü, qüdrəti və inkşafı ilə seçilən Qalib bir dövlətə çevirmiş, Ata vəsiyyətini yerinə yetirmişdir. Azərbaycanın əldə etdiyi hər bir uğurun əsasında Ulu Öndər Heydər Əliyev siyasəti və Prezident İlham Əliyev siyasəti dayanır.

## Xalqa bəxş edilən qələbə

Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti, yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi ilə torpaqlarımızın işğaldan azad edilməsinə nail olmaqla Azərbaycan tarixinə şanlı, qızıl hərflərlə yazılan tarix yazdı. Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz böyük qələbəni Azərbaycan xalqına bəxş etdi. Bu qələbələr davamlı olacaq. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət yalnız Azərbaycanın daha inkişaf etdirilməsinə, hərbi, siyasi, diplomatik sahədə güclənməsinə xidmət edir. Ulu Öndərimiz Heydər Əliyevin ruhu şad olsun, yaşasın Prezident İlham Əliyev, var olsun Qalib xalqın Zəfər partiyası olan Yeni Azərbaycan Partiyası!

# Fransa müstəmləkəçilik keçmişinə görə üzr istəsin!

*Azərbaycan Prezidenti İlham Əliyevdən rəsmi Parisi titrədən təklif*








**Bakıda Qoşulmama Hərəkatının Koordinasiya Bürosunun quruma daxil olan ölkələrin xarici işlər nazirləri səviyyəsində ikigünlük iclası başlayıb. Forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, onun ölkəsi Qoşulmama Hərəkatına sədrliyi dövründə Bandunq prinsiplərinə uyğun olaraq ədaləti və beynəlxalq hüququ, habelə üzv dövlətlərin qanuni maraqlarını qətiyyətlə müdafiə edib. İlham Əliyev Fransanın neokolonial siyasətini də pisləyib və müxtəlif ölkələrin xarici işlər nazirləri, o cümlədən Türkiyə və İran nazirləri ilə bir sıra ikitərəfli görüşlər keçirib.**

Forumda iştirakçıların sayına görə BMT-dən sonra ikinci yerdə olan bu blokun tarixində mühüm rol oynayan 120 iştirakçı dövlətin, 18 müşahidəçinin və 10 beynəlxalq təşkilatın nümayəndələri iştirak ediblər. Hazırkı konfrans dünya üçün çətin bir zamanda keçirildiyi üçün maraqlıdır. "Qoşulmama Hərəkatına üzv ölkələrin forumda iştirak etdiyini nəzərə alsaq, onların dünya siyasətində və iqtisadiyyatında baş verən proseslərə, onların bu ölkələrə mənfi təsirlərinə dair vahid mövqelərini eşitmək vacibdir. Hərəkat iştirakçıları inkişaf etməmiş dövlətləri təmsil edir və beynəlxalq problemlərin, o cümlədən iqtisadi, siyasi və ekoloji problemlərin ağır yükünü daşıyırlar.

Prezident İlham Əliyev forumda çıxış edərək vurğulayıb ki, Azərbaycan neokolonializmin istənilən formasının əleyhinədir. Qoşulmama Hərəkatına daxil olan dövlətlər hələ də neokolonializmin müxtəlif təzahürləri ilə üzləşirlər. Xarici güclərin öz maraqları üçün istifadə etdiyi bir çox ölkədə vətəndaş müharibələri davam edir. O, yeni müstəmləkəçilik siyasətinin nümunəsi kimi Fransanı göstərib: "Fransız qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması bir daha nümayiş etdirdi ki, Fransanın Afrikada həyata keçirdiyi amansız neokolonializm siyasəti iflasa məhkumdur". Azərbaycan lideri hesab edir ki, Fransa müstəmləkə keçmişinə görə üzr istəməlidir.

Fransanın keçmiş müstəmləkələri olan bəzi Afrika ölkələri Parislə qarşıdurma münasibətləri saxlayır. Oxşar vəziyyət Azərbaycanda da müşahidə olunur, lakin başqa səbəblərə görə. Fransa Ermənistanın maraqlarının müdafiəçisi kimi çıxış edir. Prezident Emmanuel Makronun erməni diasporunun nümayəndələri ilə görüşündə bu gün Fransanın Ermənistanın baş nazirindən daha çox Qarabağ ermənilərinin maraqlarını müdafiə etməsi, Bakının Azərbaycanın daxili işlərinə qarışmasını və Fransanın neokolonial siyasətinin təzahürü hesab etməsi barədə bəyanatı Cənubi Qafqazda qəbuledilməz praktika hesab olunur.

Azərbaycan Prezidenti bu ölkələrə böyük təzyiq göstərən yoxsulluq probleminə də diqqət çəkib. Ekoloji problemlər, o cümlədən içməli su çatışmazlığı da qeyd olunub. Azərbaycanın 2019-cu ildə başlayan Qoşulmama Hərəkatına sədrliyi dövründə hərəkatın tam hüquqlu təşkilata çevrilməsi məqsədi ilə institusionallaşma strategiyası hazırlanıb. Bu istiqamətdə müvafiq işlər aparılıb, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində gənclər hərəkatı və qadın platforması yaradılıb. Onun fikrincə, beynəlxalq təşkilatlar, xüsusən də BMT artıq bəşəriyyətin ümidlərini doğrultmur. BMT istər-istəməz ciddi islahatlarda keçməlidir. İlham Əliyevin sözlərinə görə, BMT Təhlükəsizlik Şurası keçmişin yadigarıdır və indiki reallığı əks etdirmir: "Biz TŞ-nin tərkibinin genişləndirilməsinin tərəfdarıyıq ki, o, daha nümayəndəli və coğrafi baxımdan ədalətli olsun. Mən şadam ki, bu gün dünyada bu məsələdə artan konsensus var". Prezident Qoşulmama Hərəkatının üzvlərindən birini BMT Təhlükəsizlik Şurasında blokun nümayəndəsi kimi görmək arzusunu ifadə edib ki, bu da hərəkatın və onun iştirakçılarının maraqlarını əks etdirir. Müxtəlif iştirakçılar arasında ziddiyyətli münasibətlərə baxmayaraq, Qoşulmama Hərəkatına üzv ölkələrin hamısı Azərbaycan Prezidenti İlham Əliyevin təklif etdiyi islahatları dəstəkləyiblər.

### Forum çərçivəsində maraqlı görüşlər

Forum çərçivəsində ikitərəfli görüşlər də keçirilib. Belə ki, İlham Əliyev Türkiyənin yeni xarici işlər naziri Hakan Fidanı və İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahianı qəbul edib. Azərbaycanın Türkiyə ilə münasibətləri qardaşdırsa, İranla, əksinə, gərgindir. "Tehranla Bakı arasında əlaqələrin möhkəmləndirilməsi, eləcə də regional məsələlərin müzakirə edildiyi" görüşə baxmayaraq, münasibətlər tam normallaşmaqdan çox uzaqdır. Bakının mövqeyi belə izah edilir ki, İran tərəfi Azərbaycanın Tehrandakı səfirliyinə hücumla bağlı hərtərəfli araşdırma aparmalı və onun nəticələrini təqdim etməlidir.



Xatırladaq ki, yanvarın 27-də Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə silahlı basqın olub. Diplomatik nümayəndəliyin mühafizə xidmətinin rəhbəri Orxan Əsgərov həlak olub, iki mühafizəçi yaralanıb. Hücum edən şəxs saxlanılıb. İran hüquq-mühafizə orqanları hücumun arxasında şəxsi motivlərin olduğunu iddia edir, lakin Bakı terrorçunun İran xüsusi xidmət orqanlarının göstərişi ilə hərəkət etdiyinə inanmağa meyllidir. Azərbaycan Xarici İşlər Nazirliyi buna etiraz olaraq İranın Bakıdakı səfirliyinin dörd əməkdaşını persona non-qrata elan edib. Bir gün əvvəl İran məhkəməsi hücum edən şəxs barəsində hökm elan etsə də, bu, Azərbaycan tərəfini yetərincə qane etmir.

İran, görünür, Azərbaycanla münasibətlərdə kəskin küncləri düzəltməyə hazırdır. Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin direktoru Fərhad Məmmədovun sözlərinə görə, İran hazırda bütün regional oyunçularla əlaqələr qurur. "Bunu onun Fars körfəzi ölkələri və ümumilikdə ərəb dünyası ilə diplomatik işində görmək olar. Yeri gəlmişkən, Çinin vasitəçilik missiyası da buna böyük töhfə verib. Proses Səudiyyə Ərəbistanı ilə təmasların normallaşmasının başlaması ilə başlayıb və yəqin ki, Tehran prosesi bu gün gərginlik olan digər dövlətlərə də şamil etmək istəyib", politoloq deyib.

Digər tərəfdən, İran Cənubi Qafqazda yaranmış reallıqları nəzərdən qaçıra bilməz. Reallıq ondan ibarətdir ki, Cənubi Qafqazdan proqnozlaşdırıla bilən hər bir ölkənin Azərbaycan Respublikası ilə yaxşı münasibətləri olmalıdır. Eyni zamanda, İranın xüsusilə Zəngəzur dəhlizi, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi və İranda müəyyən dairələrin Azərbaycana qarşı destruktiv fəaliyyəti ilə bağlı dəqiq mövqe bildirməli olduğu mövzular var. Bunsuz normallaşma baş tuta bilməz.

### Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu

Qeyd edək ki, Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu yaradılıb. Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusuna həsr olunan tədbirdə iştirakçılar Fransanın müasir müstəmləkəçilik siyasətinin aradan qaldırılması yolları, Afrika qitəsində və dünyanın müxtəlif regionlarında defakto mövcud olan köləliyin kökünün kəsilməsi üçün zəruri addımların atılması istiqamətində fikir mübadiləsi apardılar. Sonda bəyanat qəbul edilib.

Bəyanatda iştirakçılar Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu yaradılmasına dair razılığa gəliblər. Qeyd edək ki, toplantı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə baş tutub. Tədbirdə BMTM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Yeni Kaledoniya parlamentinin sədri Rock Wamytan, Fransız Polineziyası Assambleyasının prezidenti Antony Geros, Fransa Milli Assambleyasının deputatı Jean-Victor Castor və digər şəxslər iştirak ediblər.

Fərid Şəfiyev Bakıda "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusuna həsr olunan tədbirdən sonra keçirilən mətbuat konfransında deyib ki, Bakıya dəvət edilən ölkələr müstəmləkə siyasətindən əziyyət çəkirlər: "Həmin ölkələr öz problemlərini dilə gətirdilər. Hər bir ölkənin hüququdur ki, bu sıxıntıları müzakirə etsin. Azərbaycandan təklif səsləndirilib ki, bəzi ölkələr müşahidəçi qismində Qoşulmama Hərəkatında olsun. Bu, mürəkkəb məsələdir. Ancaq gündəmdə var".

Yeri gəlmişkən Yeni Kaledoniya parlamentinin sədri Rok Vamitan (Rock Wamytan) "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusunda keçirilən tədbirdə deyib ki, Fransa özünü həmişə demokratiya ölkəsi kimi təqdim edib. Ancaq bu, sadəcə bir görüntüdür. Onun sözlərinə görə, Fransanı bürüyən sosial böhran diktator hökumətin dəlilidir: "Bura irqçi cinayətləri də əlavə edə bilərik. Fransa ilk iki referendumu "iqnor edib". Hazırda da öz siyasətini davam etdirir. Bizim bugünkü qorxumuz odur ki, Fransa hökuməti xalqımızın seçiminə məhəl qoymur". Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov Haaqada keçirilən və Aİ-nin region üzrə xüsusi nümayəndələri, Brüsseldən yüksək səviyyəli rəsmilər, eləcə də həm Qafqaz, həm də Avropa ölkələrindən yüksək səviyyəli diplomatlar və ekspertlərin iştirak etdiyi "Cənubi Qafqaz və Avropa İttifaqı" konfransında müzakirələr zamanı deyib ki, əvvəllər Avropa İttifaqının (Aİ) rolu faktiki olaraq ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın inhisarında idi. Bu fəaliyyətin nəticəsi isə sıfıra yaxın idi. Daha da pisi odur ki, bu vasitəçilik nəinki sülhə gətirib çıxarmadı, hətta Ermənistan tərəfindən ilhaqın açıq şəkildə tanınmasına belə mane olmadı. Bu da öz növbəsində müharibəyə səbəb oldu.

Bəli, Fransa törətdiklərinin bədəlini ödəməyə başlayıb, necə deyərlər tökdüklərini yığır. Bütün Afrika, Yaxın Şərq, Okeaniya, Cənub-Şərqi Asiyanın bəzi ölkələri, Fransanın müstəmləkə siyasətindən əziyyət çəkən xalqlar bu gün Parisə qarşı birləşiblər. Ötən əsrin ikinci yarısında müstəmləkələrdən əl çəkən ölkələr sözlərinin üstündə durub siyasətlərində xeyli yumşaltmalara getsələr də Fransanın yalnız dekorasiyasında dəyişiklik apardığını görə bilərik. Fransa müstəmləkələrindən əl çəkmək niyyətində deyil. Amma proses artıq dönməz xarakter alıb, Fransa öz içinə qapadılmalıdır, dünya xalqları fransızların koloniyası olmaqdan qurtulmalıdır.

**V.VƏLİYEV**

# "QİSAS" ÜÇÜN ZƏMİN YARADAN MƏQAMLAR






Vaşinqtonda üçtərəfli görüşün keçirildiyi bir zamanda separatçıların öz təxribat ənənələrinə əl atmalarının nəyə hesablandığı hər kəsə bəllidir, çünki təxribatçıların ənənəvi pozuculuq siyasəti, eləcə də bəsit şəkildə eyni yanaşma tərzi heç kim üçün sirr deyil. Bu təxribatları törədənlərin məqsədi hər zaman olduğu kimi, reinteqrasiyanın guya mümkün olmadığı görüntüsünü yaratmaq, eyni zamanda azərbaycanlıların guya ermənilərə hücum etməkdə olduqları təəssüratını formalaşdırmaqdan ibarətdir. Amma hər zaman olduğu kimi, Bakının cavab tədbirləri separatçıların planlarını darmadağın etdi və Azərbaycanın təklif etdiyi, ABŞ-ın da dəstəklədiyi reinteqrasiya prosesini kimin pozduğunu açıq şəkildə ortaya qoydu.

Çox güman ki, dünya ictimaiyyəti, xüsusən də, ABŞ cəmiyyəti bu dəfə də erməni separatçılarının əsl üzlərini gördü və göstərmək istədiklərinin tamamilə əksini müşahidə etdi. Özlərini danışıqlar zamanı tərəf kimi aparmaq niyyətləri bu dəfə də dərhal ortaya çıxdı, çünki Ermənistan nümayəndə heyətinin ABŞ-a səfəri, eləcə də danışıqlarla bağlı görüşləri fonunda qarışıqlıq yaratmalarının, təxribat törətmələrinin, Azərbaycanın mövqelərinə tərəf atəş açmalarının başqa mənası ola bilməzdi və həmin separatçılar bununla eyni zamanda, tərəf olmaq istəkləri barədə rəsmi İrəvana da mesaj göndərirdilər. Amma rəsmi Bakının onların təxribatlarına layiqli cavabı bunun qəbul edilmədiyini, eləcə də mümkünsüzlüyünü bir daha təsdiq etdi, isbatladı. İsbat etdi ki, onların əməlləri güzəşt üçün deyil, qisas üçün zəmin yaradan əməllərdir.

ABŞ bu dəfə də şahidi oldu ki, pozucu tərəf Azərbaycan deyil. Şahidi oldu ki, azərbaycanlıların amnistiya ilə bağlı təklifləri qarşılığında ermənilər, erməni separatçıları təxribatlara can atır, müxtəlif qarışıqlıqlar törədir, pozuculuq fəaliyyəti ilə məşğul olurlar. Rəsmi Vaşinqtonun da dəstəklədiyi amnistiya təklifinə erməni separatların məhəl qoymadığının bu dəfə ABŞ tərəfi əyani şəkildə şahidi oldu və bunu artıq təkzib də edə bilməz. Çünki Vaşinqtonda tərəflər arasında görüş keçirildiyi, danışıqlar aparıldığı, məsələlərin həlli ilə bağlı müzakirələr edildiyi zaman erməni separatçılarının aranı qarışdırmağa hesablanan addımlarla təxribat törətmələrini görməməzliyə vurmaq qətiyyən mümkün deyil. Bir sözlə, Azərbaycan tərəfinin qisas əməliyyatını aparmaqda haqlı olduğunu danmaq bundan sonra qətiyyən mümkün deyil və bundan sonra amerikalılar çətin ki, bunun əksini fərz etmək istəyərlər.

Erməni separatçıları çox yaxşı başa düşməli idilər ki, Vaşinqtonda danışıqlar fonunda etdikləri əməllərlə, törətdikləri təxribatlarla, Azərbaycan tərəfinə atılan atəşlərlə, ümumiyyətlə, yol verdikləri axmaqlıqlarla rəsmi Bakıya qəti addımlar atmaq, antiterror əməliyyatlarına başlamaq imkanı vermiş oldular. Həmçinin onlar anlamalı idilər ki, bu axmaqlıqları, təxribat xarakterli hərəkətləri ABŞ tərəfindən də müşahidə olundu və indi rəsmi Vaşinqtona başa salmağa belə ehtiyac qalmır ki, separatçılar amnistiya istəmir və mümkün antiterror əməliyyatları qaçılmazdır, hansı ki, Azərbaycan tərəfinin buna haqqı, hüququ çatır. Bir sözlə, erməni separatçıları öz məkrli niyyətləti, hərəkətləri ilə Vaşinqtonun da "diqqətini" qazana bildilər və artıq amerikalılar antiterror əməliyyatlarının labüdlüyünə, vacibliyinə özləri də əmin oldular, özü də yerindəcə. Daha dəqiq və qısa şəkildə desək, Vaşinqtonda keçirilən görüşlər zamanı Qarabaqda baş verənlər, erməni separatlarının etdiləri məhz siyasi müstəvidə də Azərbaycan tərəfinin xeyrinədir və qisas əməliyyatı üçün əsaslı zəmin deməkdir.



Sülh prosesi ilə bağlı müzakirələrin getdiyi bir zamanda, məqamda atəş səslərinin eşidilməsi sözsüz ki, hərbi müstəvidə addımlara rəvac verir və bunun üçün sanki ermənilər əldən-ayaqdan gedirlər. Bütün bunlar sanki danışıqların deyil, hərbi əməliyyatların daha vacib olduğunu ortaya qoyur. Hadisələrin gedişi hərbi müstəvidə mümkün perspektivləri ön plana çıxarır və hərbi əməliyyatların qaçılmaz olduğunu bir daha təsdiq edir, hansı ki, bunu bütün dünya ictimaiyyəti məhz Vaşinqton danışıqları fonunda da bir daha görmüş oldu. Hər kəs gördü və əmin oldu ki, əgər Azərbaycanın mövqelərinə tərəf atəş açılırsa, deməli, qanunsuz erməni silahlı dəstələri hələ də bölgədədir. Əmin olundu ki, onların bölgədən çıxarılması öhdəliyi Ermənistan tərəfindən icra olunmayıb və hələ də olunmur. Belə olan halda Azərbaycan tərəfinin praktiki addımlar atmaq hüququ artıq nəinki ABŞ, ümumilikdə, beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti tərəfindən tanınmaya, qəbul edilməyə bilməz. Deməli, istənilən zamanda, istənilən anda rəsmi Bakı antiterror əməliyyatlarına başlaya və ərazini tamamilə nəzarətə götürə, öz ərazilərini erməni silahlı dəstələrindən təmizləyə bilər. Çünki reinteqrasiya peosesinin önünü kəsən, amnistiyadan belə imtina edən, əvəzində təxribatları davam etdirən, miqyasını genişləndirməyə çalışan separatçılar məsələnin diplomatik deyil, hərbi müstəviyə daşınmasını labüd, qaçılmaz edir və qısa zamanda bunun zərurət olaraq qəbul olunacağı ehtimalı bəlkə hələ göz önünə də alınıb.

Heç şübhəsiz ki, separatçılar törətdikləri təxribatlarla İrəvana da mesaj ötürmək niyyəti güdüblər və əlbəttə, istər sülh məsələsi, istərsə də inteqrasiya ilə bağlı razılığa gəlmədiklərini çatdırmaq fikrində olduqları dərhal bəlli olur. Hətta, Azərbaycan tərəfinin amnistiya təklifini belə dəyərləndirə bilmədikləri özünü büruzə verir. Bu baxımdan onların prosesi pozmaq cəhdlərini görmək çətin deyil. Doğrudur, bu yanlış addımdır, amma separatçılarım həmin addımlarının pərdəarxası məqamları da təkzib edilə bilməz. Məsələn, Rusiyanın onları qızışdırması tam mümkün haldır, çünki Vaşinqtonda müzakirələrin aparılmasının rəsmi Moskvanın istəyindən kənar olduğu bəllidir. Ruslar heç zaman istəmirlər ki, Azərbaycanla Ermənistan arasında olan məsələlərlə bağlı prosesə amerikalılar da qarışsınlar və bu baxımdan separatçıların məhz Vaşinqton danışıqları zamanı təxribatlar törətmələri də təsadüfi sayıla bilməz. Amma erməni separatçıları gərək nəzərə alardılar ki, etdilərinin adekvat cavabı ruslara deyil, onlara olacaq və altını da özləri çəkmiş olacaqlar.

Təbii ki, Azərbaycanın və Ermənistanın bu dəfə Vaşinqton danışıqlarında razılıq baxımından irəliləyiş əldə etmək ehtimalından erməni separatçıları çox ehtiyatlanıblar. Hətta qorxublar da. Çünki bu iki tərəf arasında razılığın əldə olunması onların nəinki siyasi, hətta fiziki varlığının da sonu sayıla bilər, bir halda ki, amnistiya təklifindən yararlanmayblar. Deməli, həmin təklifi doğru-düzgün qiymətləndirməyənlərin yuxuları da qarışıb, kürklərinə də haqlı olaraq birə düşüb.

Məhz bu baxımdan prosesi, razılığa gəlinməsi ilə bağlı prosesi pozmaq cəhdləri də anlaşılan məqamlarlardır. Amma anlaşılmayan odur ki, həmin erməni separatçıları vəziyyətlərinin daha ağır ola biləcəyini niyə qanmaq, başa düşmək istəmirlər. Axı bilməlidirlər ki, hadisələrin gedişi, onların atdıqları addımlar, terror hərəkətləri, ümumiyyətlə, ərazini tərk etməmələri və tabe olmamaları ciddi şəkildə pseseslərə təsir edə, qisas əməliyyatına səbəb ola bilər və belə olacağı da gözlənilir.

Hadisələrin gedişi təsdiq edir ki, rəsmi İrəvan özü də danışıqlar prosesindən yayınmağa çalışır. Doğrudur, Ermənistan danışıqlar prosesinə qatılır və bu ölkənin baş naziri belə sülh prosesi barədə fikirlər səsləndirir, amma separatçılara rəsmi İrəvanın cavab verməməsi, onları susdurmaması tamam başqa mənzərəni açıb ortaya qoyur və bu mənzərə qisas əməliyyatının zamanı olduğu barədə düşünməyə əsas verir. İstənilən halda erməni separatçılarının təxribatları sülh prosesinə zərbə olaraq qiymətləndirilir və istər Moskva, istərsə də Vaşinqtonun bu istiqamətdə təşəbbüslərinin pozulmasına hesablanan addım kimi qəbul olunur. Bütün bunlar isə, Azərbaycanın öz suveren ərazidində antiterror əməliyyatlarına zəmin yaradır və hətta beynəlxalq dəstəyin olacağı da bu məqamda real görünür. Üstəlik, əgər separatçılar hələ də yeni təxribatlar planlaşdırırlarsa, deməli, növbəti qisas əməliyyatı artıq gözləniləndir.

Xatırladaq ki, 10 noyabr 2020-ci il tarixli bəyanatın dördüncü bəndinin tələblərinə uyğun olaraq, Rusiya sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılması ilə paralel şəkildə aparılmalı idi və əgər üç ilə yaxın müddət ərzində bu tələb yerinə yetirilməyibsə, bu tələbin icrasının həyata keçirilməməsi üçün müxtəlif bəhanələr uydurulursa, Ermənistan tərəfi Qarabağda, yəni Azərbaycan ərazisində öz hərbi mövcudluğunu davam etdirirsə, ölkəmizin ərazi bütövlüyünü tanıdığını, sülh müqaviləsində maraqlı olduğunu bəyan etməsi fonunda hərbi-siyasi təxribatlarını davam etdirirsə növbəti qisas əməliyyatlarına zəmin yaradır, əsas verir. Azərbaycan ərazisində qanunsuz silahlı birləşmələrin 10 minə yaxın üzvü hələ qalırsa, onların böyük əksəriyyəti də Ermənistan silahlı qüvvələrinin mənsublarıdırsa, onların əməliyyat-idarəetmə sistemi, logistikası, silah-sursat təminatı Ermənistan ordusunun Baş Qərargahı tərəfindən reallaşdırılırsa, maliyyə təminatını da İrəvan həyata keçirirsə, deməli, hələ də ermənilər öz məkrli niyyətlərindən əl çəkməyiblər və bu da növbəti qisas əməliyyatı üçün yetərincə əsas, zəmin deməkdir. Çünki Üçtərəfli Bəyanatla bağlı öhdəliyinin olduğunu öz imzası ilə təsdiq edən erməni baş naziri də, Ermənistanın öhdəliyinin icrasının təmin edilməsinin qarantı olduğunu öz imzası ilə təsdiq edən Rusiya prezidenti də ən azından ya separatçıların öhdəsindən gələ bilmir, ya da nə Ermənistan, nə də Rusiya öz üzərinə düşən missiyanı həyata keçirmir. Belə olan halda isə Üttərəfli Bəyanatın legitimliyindən söhbət gedə bilməz və cərəyan edəcək hadisələrdə məsuliyyət məhz Ermənistanla Rusiyanın üzərinə düşmüş olur. Yəni, istənilən beynəlxalq qurumdan tutmuş, Fransa kimi ermənipərəst ölkəyə qədər hansısa bir qurumun da, ölkənin də, qüvvənin də legitimliyi sual altında olan bir bəyanata görə ölkəmizi nədəsə ittiham etməsi absurd sayılır və deməli, növbəti qisas əməliyyatı ilə bağlı kimsə ağız büzə bilməz. Ona görə ki, Azərbaycan öz ərazisində yaşayan əhalinin, vətəndaşlarının təhlükəsizliyini təmin etmək, bunun üçün də öz suveren torpaqlarında qalan və təhlükəsizliyə təhdid hesab olunan silahlı dəstələri zərərsizləşdirmək hüququna malikdir və bu hüququ kimsə dana bilməz.

**İnam Hacıyev**

# “Hər bir Qərbi Azərbaycanlının canı öz yurdundadır”



***Azərbaycan Yazıçılar Birliyinin üzvü, Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının üzvü, Zəngəzur mahalı, Qarakilsə rayonu Şəki kənd İcmasının sədri, şair-publisist Azadə Novruzovanın SİA-ya verdiyi müsahibəni təqdim edirik:***

*- Azadə xanım, Qərbi Azərbaycan ədəbiyyatını necə təqdim edərdiniz?*

- Qərbi Azərbaycan ədəbiyyatı bütövlükdə Azərbaycan ədəbiyyatının tərkib hissəsidir. Qərbi Azərbaycan ədəbiyyatının xeyli hissəsi bizdən uzaqdadır və bu ədəbiyyat da bizim kimi ruhən əsir qalıb. Doğrudur, biz hara getmişiksə, ədəbiyyatımızı da ora aparmışıq. Amma məlumdur ki, Qərbi Azərbaycan ədəbiyyatı o torpaqlarda yaranıb. Ona görə də o yerlərə məxsusdur. Bu ədəbiyyat oranın havasının, torpağının, mədəniyyətinin məhsuludur. Hansı yerə getsək də, biz o yerin ab-havası içindəyik, biz oranın ruhunu daşıyırıq. Qərbi Azərbaycandan deportasiya olunun hər bir insanın canı oradadır. Vətənimizə bağlıyıq. Torpaqlarımıza qayıtmaq yolunda israrlıyıq.

*- Qərbi Azərbaycan İcması bu ədəbiyyatın təbliği istiqamətində hansı işlər görür?*

- Azərbaycan Prezidenti İlham Əliyev ötən ilin dekabrında Qərbi Azərbaycan İcmasında bir qrup ziyalı ilə görüşdə görəcəyimiz işləri ayrı-ayrılıqda vurğuladı. Onun çıxışı əsasında Qayıdış Konsepsiyası hazırlandı. Həmin görüşdə xalq şairimiz Vahid Əziz öz çıxışına Göyçə mahalından bəhs edən şeir ilə başladı. Bu o demək idi ki, Qərbi Azərbaycan ədəbiyyatının da təbliği, bugünkü gündə dünya ictimaiyyətinə, o cümlədən, milli ədəbi mühitimizdə tanıdılması və inkişafı da həmin konsepsiyada öz əksini tapır. Bu konsepsiya hazırlanmadan öncə 2021-ci ildə Aşıq Ələsgərin 200 illiyinin keçirilməsi ilə bağlı cənab Prezident sərəncam vermişdi. Bu sərəncamdan sonra ardıarası kəsilmədən silsilə tədbirlər keçirildi. Qərbi Azərbaycan İcması da bu yubiley ilə bağlı bir neçə elmi və mədəni konfranslar həyata keçirdi. Sərəncam çərçivəsində tədbirlərin həyata keçirilməsindən sonra Bakı şəhərində Aşıq Ələsgərin abidəsinin ucaldılması qərarı verildi və bu istiqamətdə proses başlanılıb. Bütün bunlar Qərbi Azərbaycan ədəbiyyatına dövlətin qayğısı, onun təbliği istiqamətində atılan addımlardır. Eyni zamanda, bu yaxınlarda İcmada Qərbi Azərbaycandan olan yaradıcı insanların iştirakı ilə geniş tərkibdə iclas keçirildi. “Ədəbi İrəvan” almanaxının yenidən çap olunması nəzərdə tutulur. Bundan əlavə, Azərbaycan Yazıçılar Birliyinin (AYB) Qərbi Azərbaycan bölməsi yaradılıb.








*- Sizcə, Qərbi Azərbaycan yaradıcıları həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün hansı işlər görməlidir?*

- Bugünkü şərait onu tələb edir ki, hər bir Qərbi Azərbaycanlı özü-özünü təqdim etsin. Təqdim olunduğumuz yerdə bizim Qərbi Azərbaycanlı olduğumuz işıqlandırılmalıdır. Çünki biz toponimlərimizi hallandırmaqla, o torpaqlardan deportasiya olunduğumuzu diqqətə çatdırmaqla olduğumuz mühiti həqiqətlərlə tanış etmiş oluruq. Hər kəs bilməlidir ki, bizim Qərbi Azərbaycan kimi haqlı məsələmiz var bu məsələnin həllində iddialıyıq.

*- Bəs siz Qərbi Azərbaycan probleminin dünyaya çatdırılması ilə bağlı necə bir fəaliyyət göstərirsiniz?*

- Bu yaxınlarda Təbrizdə bir kitabım çap olundu. Olduğumuz yerlərdə avtobioqrafiyamızı çap etməklə bilməyənlərə də Qərbi Azərbaycandan olduğumuzu, o yerlərin bizim qədim torpaqlarımız olduğunu aşılayırıq. Mən Bakıda yaradıcı insanlar arasında keçirilən beynəlxalq festivalda iştirak edərkən nə üçün Vətənə bu qədər bağlı olduğumuzla bağlı sual verildi. Cavabında isə Vətən həsrəti ilə yaşadığımızı qeyd etdim. Bundan əlavə bu il Misirdə ədəbiyyat və tənqid jurnalında ərəb dilinə tərcümə edilərək şeirlərim çap olundu. O şeirlərdə də Vətən barədə, Zəngəzurum barədə duyğularımı əks etdirmişəm. Demək istəyirəm ki, biz yaradıcı insan olaraq dünyanı dolaşırıq və Qərbi Azərbaycanlı olduğumuzu da həmin insanlara təqdim edirik. Hansı sahədə çalışmağımızdan asılı olmayaraq qarşımızda duran Qərbi Azərbaycana qayıdış problemini özümüzə yük edib bütün dünyanı dolaşmalıyıq.

*- Bir yaradıcı insan kimi Qərbi Azərbaycanla bağlı arzunuz nədir?*

- Arzumdur ki, biz Qərbi Azərbaycanda Aşıq Ələsgərin poeziya günlərini təşkil edək. Yaradıcı bir insan olaraq bu, mənim istəyimdir. Düşünürəm ki, bu istəyim gerçəkləşəcək. Necə ki biz Şuşamızda Vaqifin poeziya günlərini keçiririk, eləcə də əziz Göyçəmizdə də Aşıq Ələsgərin poeziya günlərini keçirəcəyik. Orada yalnız Qərbi Azərbaycandan olan ziyalılarımız deyil, bütün türk dünyasından olan ziyalılar toplaşacaq. Çünki Dədə Ələsgər həm də bütövlükdə türk dünyasının yaradıcı ozanı olub. Onun yaradıcılığı hansı tərəfdən baxsaq, Azərbaycanın bütövlüyünü görə bilərik.

***Ləman Sərraf***

# Fransa nasizmi dövlət siyasətinə çevirmişdir

## KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

“Nasizm təhlükəli bəladır. Fransa polisinin Əlcəzair əsilli vətəndaşı öldürməsi bu ölkədə nasizmin cərəyan etdiyini, gündən-günə şaxələndiyini göstərir. Artıq bu xətt Fransanın dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir və ölkənin hakim dairələri nasizm ideologiyasını genişləndirməklə irqi ayrı-seçkilik pərdəsi altında öz hakimiyyətlərinin ömrünü uzatmaq fikrindədilər.” Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri qeyd edib ki, Fransa əsrlərlə bu yolun yolçusu olmuş, insan hüquqlarının müdafiəsi şüarları ilə özünün mənfur siyasətini uzun illər davam etdirmiş, dünyanın bir çox ölkələrində kütləvi insan qırğınları törətmişdir.

“Əlcəzair xalqının başına gətirilən müsibətlər və yenə də həmin faciələrin törədilməsi bir daha sübut edir ki, Fransa dövləti nasizm ideologiyasına sadiqliyini davam etdirir və insan faciələrinin tərəfdarıdır. Ölkə Prezidenti Emmanuel Makronun, bir çox siyasi dairələrin, parlament üzvlərinin fəaliyyətində müşahidə olunan nasizm əlamətləri, terrorçuluq, suiqəsd, münaqişələrə təhrikçilik faktları deməyə əsas verir ki, Fransa demokratiya, azadlıq, insan haqları normalarına tərəfdar deyil, əslində ölkələr arasında müharibələrin, qarşıdurmaların, insan tələfatlarının baş verməsinin marağındadır. Son otuz ildə Azərbaycana münasibətdə bu özünü aydın göstərdi və bu mənfur, çirkin siyasət bu gün də davam etdirilməkdədir.






Təcavüzkar, terrorçu, xəyanətkar bir dövləti - Ermənistanı dəstəkləməklə, ona maddi, mənəvi, hərbi yardım göstərməklə Fransa dövləti, şəxsən Makron təcavüzkarların yanında olduğunu nümayiş etdirir və bunu dünya ictimaiyyətinə sülhü, əmin-amanlığı bərpa etmək məqsədi kimi sırımaq istəyir. Ancaq öz ölkəsində nasizmə geniş meydan açan, əmin-amanlığı təmin edə bilməyən, xalqın nifrətini qazanan Makron kimi siyasətçilər heç bir dövlətə, xalqa sirkin əməlləri ilə xoşbəxtlik, sülh bəxş edə bilməzlər. Fransada nasizmin belə geniş yayılması sözsüz ki, Avropa ölkələri üçün çox təhlükəlidir. Bu gələcək üçün yaxşı heç nə vəd etmir. Bu barədə dünya ölkələri, siyasi rəhbərlər ciddi düşünməli, xalqların faciəsi üçün yaranan təhlükənin qarşısı vaxtında alınmalıdır”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# İqtisadi inkişaf: müasir yol infrastrukturu

## Dövlət başçısının Sərəncamına əsasən, Zərdab rayonunun Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzəralılı avtomobil yolunun tikintisinə 6,4 milyon (altı milyon dörd yüz min) manat ayrılıb

Bu gün Azərbaycan öz nailiyyətləri ilə dünya birliyində sayılıb-seçilən, öz təşəbbüsləri və nəhəng iqtisadi layihələri ilə bütün bəşəriyyətə fayda verən dövlətlər sırasındadır. Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, yol infrastrukturu mühüm əhəmiyyətə malikdir. Azərbaycanın yol infrastrukturu özünün sürətli inkişaf mərhələsindədir. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan və ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahatlar, bütün sahələrdə olduğu kimi, yol infrastrukturu da uğurla həyata keçirilir. Son vaxtlar yol infrastrukturunda ən müasir standartlara cavab verən texnologiyaların tətbiq olunması dövrü başlayıb. Avtomobil yollarının bərpası və yenidən qurulması və yeni yol şəbəkələrinin çəkilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Dövlət başçısının imzaladığı sərəncamlara, qəbul olunan dövlət proqramlarına uyğun olaraq, yol-nəqliyyat infrastrukturunun yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu gün ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yenilənməsi və müasirləşdirilməsi istiqamətində işlər uğurla davam etdirilməkdədir. Regionların, həmçinin, kənd və qəsəbələri birləşdirən avtomobil yolların, yolayırıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Son illər ölkəmizin demək olar ki, hər bir istiqamətində avtomobil yolları salınmış, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilmiş və yeni körpülər tikilmişdir. Ölkənin magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Kəndlərin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinin, eləcə də, kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olmuşdur. Kəndlərarası və kənddaxili avtomobil yolları da daxil olmaqla, salınan avtomobil yollarının həcmi sovet dövründə salınmış avtomobil yollarının həcmindən dəfələrlə çoxdur.





Görülən işlər, bir daha deməyə əsas verir ki, həyata keçirilən infrastruktur layihələr nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev ”Zərdab rayonunun Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzəralılı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında”

Sərəncam imzalayıb. Sərəncama əsasən, dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzəralılı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon (altı milyon dörd yüz min) manat ayrılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, ”Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir,”

Qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızda əhalinin rifahı yüksəlib, firavanlığı artıb. Bütün bölgələrinin siması tamamilə dəyişib, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində bir sıra sosial və iqtisadi xarakterli obyektlər istifadəyə verilir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, ölkəmizdə yolların yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Regionlarda nəzərdə tutulan bütün infrastruktur layihələrin icra edilməsi, insanların həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir edən kənd təsərrüfatının inkişafına gətirib çıxaran kənd və qəsəbələrarası avtomobil yollarının tikintisi istiqamətdə genişmiqyaslı işlər aparılır. Əlbəttə ki, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Bölgələrdə yaşayan əhalinin gediş-gəlişi asanlaşır və yetişdirdikləri məhsulun mərkəzə daşınmasında mövcud olan çətinliklər aradan qalxır. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir.

Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır.

***ZÜMRÜD***

# “Yay qripi” nədir?

**Asqırma, qızdırma, burun axması kimi qripin əlamətlərini daşıyan xəstəliklər ilin soyuq fəsillərində çox yayılmış olsa da, yayda da respirativ infeksiyalar insanları narahat edir. Qripin əlamətləri ilə çox oxşar olan ”yay qripi” nədir?**

**İNFEKSİONİST AÇIQLADI**

Bu barədə infeksionist Leyla Əmrahova SİA-ya açıqlama verib. O, qeyd edib ki, çimərliklərdə də belə viruslara yoluxmaq mümkündür: ”Qrip infeksiyası və digər respirativ infeksiyalara daha çox ilin soyuq fəsillərində rast gəlinir. Çünki bu fəsillərdə iş yerlərində, yaşayış yerlərində, metrolarda, nəqliyyat vasitələrində əhali daha sıx yerləşir, otaqların havası daha gec dəyişdirilir. Buna görə də bu cür infeksiyalar əsasən ilin soyuq fəsillərində yayılır. Həmçinin, qrip virusu günəş şüasının, dezinfeksiyaedicilərin, isti temperaturun təsirindən tez məhv olur. Lakin yay fəslində də belə viruslar yayıla bilir. Qrip, respirator viruslardan adenovirus xəstəliyi, paraqrip infeksiyası, rinovirus infeksiyası da yay fəslində yayıla bilər. Bu infeksiyaların da klinik əlamətləri qriplə demək olar ki, eynidir. Yuxarı tənəffüs yollarının infeksiyasına rast gəlinir, xəstəlik ağırlaşan zamanı aşağı tənəffüs yollarının infeksiyası da inkişaf edə bilir. Məsələn, adenovirus xəstəliyində yoluxma hava damcı yollarından başqa, çimərliklərdə çimdikdə konyunktivitdən, alimentar yolla da yoluxmaq mümkündür. Əlamətləri isə qrip infeksiyasının əlamətlərinə çox bənzəyir. Yoluxma zamanı konyunktivit, ürəkbulanma, qusma, kimi əlamətlər üzə çıxa bilər, yuxarı tənəffüs yollarının kataral əlamətləri müşahidə oluna bilər. Rinovirus infeksiyasında da daha çox yuxarı tənəffüs yollarının infeksiyası, kataral əlamətlərə rast gəlinir”.



İnfeksionist qeyd edib ki, yayda da bu cür viruslardan qorunmaq üçün gigiyena qaydalarına əməl etmək vacibdir: ”Tənəffüs yollarının infeksiyalarından qorunmaq üçün tez-tez əlləri yumaq, insanların sıx olduğu yerlərdə maskalardan istifadə etmək, gigiyenik-sanitar qaydalara riayət etmək lazımdır”.

***Aysel Naibli***











# Fransa idarəolunmaz oyuncaq dövlətə çevrilir

## Parisdə insanlara qarşı zorakılıqların törədilməsi Makron hakimiyyətinin irticaçı bir rejim olduğunu göstərir

Fransanın Nanter şəhərində polis tərəfindən öldürülən 17 yaşlı yeniyetmənin xatirəsinə keçirilən "Ağ yürüş"ün iştirakçıları ilə polis qüvvələri arasında qarşıdurma olub. Aksiya iştirakçıları bir neçə avtomobili aşıraraq yandırıblar. Mağazalara, dükanlara basqın təşkil olunub, banklar qarət edilib. Makron hakimiyyəti isə artmaqda olan hiddət və qəzəbin qarşısını almaqda acizdir. Bu rejim insanların azad şəkildə toplaşmaq azadlıqlarını məhdudlaşdırmaq üçün gözyaşardıcı qazdan istifadə edir. Fransada iğtişaşlar zamanı polis və jandarmlar 4 min nəfəri saxlayıb ki, onlardan 10 faizi Fransa vətəndaşlığı olmayan insanlardır. Fransanın iqtisadiyyat, maliyyə, sənaye və rəqəmsal suverenlik naziri Bruno Le Mer iyunun 27-dən bəri iğtişaşçıların ölkə boyu 1000-dən çox mağaza və 200 ticarət mərkəzini yandırıb talan etdiyini bildirib. Bu kimi iğtişaların törədilə biləcəyi gözlənəndir. Çünki "sarı jiletlilər" hərəkatından sonra ölkədə Makron rejimi müsbətə doğru hər hansı addım atmamışdır. Əksinə, vəziyyətin daha da ağırlaşmasına xidmət edən sosial iqtisadi siyasət həyata keçirmiş, insan hüquq və azadlıqlarının məhdudlaşmasına hesablanan qərar və qanunlar qəbul etmişdir.

### Fransa Ermənistana terror aktlarının törədilməsinə yardım göstərir

Makron hakimiyyəti yalnız xalqına qarşı qəddar siyasəti ilə kifayətlənmir. Həm də başqa ölkələrdə insanların qətlini həyata keçirir və Ermənistan kimi terroru dövlət siyasətinə çevirən ölkələrə terror aktları törətməyə, silahlı qarşıdurmalar yaratmağa təhrik edir. İstər birinci, istərsə də İkinci Qarabağ savaşı zamanı Fransanın Ermənistana hər cür maliyyə, hərbi və siyasi dəstək göstərdiyi dünya KİV-lərində müzakirə olunan məsələlərdəndir. Ümumiyyətlə, tarixən Fransa Azərbaycan və azərbaycanlılara qarşı vəhşi və cinayətkar siyasət yürüdüb. Fransa təcavüzkar qüvvələri 1918-ci ilin mart-aprel aylarında Güney Azərbaycanın Salmas, Xoy, Sulduz, Urmiya, Muğan və digər ərazilərinə silahlı basqınlar edərək azərbaycanlıları kütləvi şəkildə qətlə yetirib, evlərini dağıtmışlar. Fransa digər sivil xalqlara qarşı da qəddar və siyasət aparıb. Təkcə Əlcəzairdə Fransa hərbçiləri 1,5 milyon insanı qətlə yetirmişlər. Bununla yanaşı, 1830-1962-ci illər ərzində Fransa Əlcəzairdə bütün təbii sərvətləri talan etmiş, tarixi abidələrini dağıtmışlar. 1945-ci ilin 8 mayında Fransa ordusunun Setif, Quelma və Karatta bölgələrində nümayişçilərə havadan və qurudan hücumu nəticəsində 45 min insan öldürüldü, 5 minə yaxın adam həbs olunub, 99 nəfər edam, 64 nəfər ömürlük katorqa cəzalarına məhkum edildi. Fransanın Əlcəzairi işğal altında saxladığı 132 il müddətində 5,5 milyon əlcəzairli etnik təmizlənməyə məruz qalıb. 1960-1966-cı illərdə Əlcəzairin Böyük Səhrada payına düşən Reqqan və İn Ekker adlı ərazilərində Fransa tərəfindən 17 nüvə sınağı gerçəkləşdirilib. Fransa aşkar edilməmiş kimyəvi, radioaktiv və zəhərlənmiş tullantıların yerləşdiyi ərazilərə dair topoqrafik xəritələri bu günədək Əlcəzair tərəfinə təqdim etmir.

### Fransa qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə üzr istəməlidir

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 1-də Əlcəzairdə keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında çıxışı zamanı demişdir: "Fransanın Əlcəzair xalqına qarşı törətdiyi qətliam dünyanın heç vaxt unutmamalı olduğu bir hadisədir. Fransa Əlcəzair xalqına qarşı çox dəhşətli bir müharibə aparıb. Bu dəhşətli qətliam 1,5 milyon insanın ölümü ilə nəticələnib". Prezident İlham Əliyev bu cür fəlakətlərin gələcəkdə qarşısının alınması üçün bütün imkanlardan istifadə edilməsinin vacibliyini vurğulayıb. Dövlət başçısı bütün beynəlxalq tədbirlərdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi tarixindən, 44 günlük döyüşlər nəticəsində ərazilərin azad olunmasından, ermənilərin 30 il ərzində törətdikləri vəhşiliklərdən də bəhs edir. O, Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında çıxış edərkən bu barədə danışıb: "Azərbaycan 30 il ərzində işğaldan əziyyət çəkib. İki il əvvəl Azərbaycan münaqişəyə son qoydu. Biz ərazilərimizi işğaldan azad etdik, torpaqlarımıza qayıtdıq". Dövlət başçısı 2020-ci il noyabrın 10-da atəşkəslə bağlı bəyanatdan sonra 260-dan çox Azərbaycan vətəndaşının mina qurbanı olduğunu, yaxud müxtəlif dərəcəli bədən xəsarətləri aldığını da toplantı iştirakçılarının diqqətinə çatdırıb. O, Ermənistan-Fransa cütlüyünün cinayətlərinin davam etməsindən söz açıb. Prezident Əlcəzairin də vaxtilə oxşar problemlə qarşılaşdığını vurğulayıb: "Bu gün Mücahidlər Muzeyini ziyarət edərkən mənə məlumat verildi ki, Fransanın işğalı zamanı fransızlar beş milyondan çox mina basdırmışdılar. Bu isə mənə bizim eynilə üzləşdiyimiz, hazırda əziyyət çəkdiyimiz işğal zamanı Ermənistan tərəfindən bir milyondan çox minanın basdırılmasını xatırlatdı".

Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən Nazirlərlə görüşündə çıxış edərkən Fransanın Əlcəzairdə törətdiyi qətliamları sərt şəkildə tənqid edib. Bildirib: "Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır". Bunun utanmaz və iyrənc hərəkət olduğunu deyən dövlətimizin başçısı qeyd edib: "Biz Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik".

Prezident İlham Əliyev Fransanın öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməli olduğunu da diqqətə çatdırıb.

Araşdırmalar zamanı bəlli olur ki, Fransa müstəmləkə siyasətini qanlı formada həyata keçirib. 1960-cı ildə Fransa əsgəri birlikləri Cibutiyə daxil olaraq insanları küçədə və evlərində təqib etmiş, nəticədə 100 minlərlə insan öldürmüşlər. Fransa Cad və Qabon torpaqlarında da soyqırımı həyata keçirmiş, islam dinini qadağan etmiş, din xadimlərini öldürmüş, 10 minlərlə insanı yaşamaq hüququndan məhrum etmişdir. 1881-ci ildə Fransa Tunisi, daha sonra Kamerununu, eyni zamanda, Merakeşi işğal edərək insanları qan gölündə boğmuşlar. 1947-ci il noyabrın 29-da Vyetnamda törədilmiş "Mıy Ça" adlandırılan qətliam nəticəsində fransızlar 170-i qadın və 157-si uşaq olmaqla, yüzlərlə vyetnamlını vəhşicəsinə öldürüblər, 400-ə yaxın ev yandırılıb. Bu qətliamlar zamanı vyetnamlı qadınlar güllələnməzdən əvvəl fransız əsgərləri tərəfindən zorlanıb. 1994-cü ildə Fransa Ruandada "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat keçirib. Nəticədə, Fransa silahlı qüvvələri onlara qoşulan yerli münaqişə tərəfinin iştirakı ilə Ruandada tutsi qəbiləsinin 800 mindən çox üzvünü qətlə yetiriblər. "Ruandada tutsi qəbiləsinin soyqırımında Fransanın roluna dair hesabata məsul komissiya" tərəfindən 2021-ci il martın 26-da Fransanın dövlət başçısına təqdim edilmiş sənəddə Fransanın qətliamda məsuliyyəti qeyd olunub.

### "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması"

Təbii ki, demokratik düşüncəli dünya xalqları, o cümlədən Azərbaycan dövləti və xalqı Fransanın törətdiyi soyqırımı aktlarına sərt münasibət bildiriblər. İyulun 6-da Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılması" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masanın yekunlarına dair bəyanat qəbul edilib. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə, Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı son fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verdi. Əslində, bütün qitələrdən 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı beynəlxalq hüququn fundamental prinsipləri, eləcə də "Bandunq prinsipləri" və xalqların mənafeyi əsasında müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi hələ də müstəmləkə hökmranlığına qarşı mübarizə aparan xalqları dəstəkləmək üçün yeni məqsədlər müəyyənləşdirməyi özünə borc bilib. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşəbbüsü ilə Martinika, Qayana, Yeni Kaledoniya, fransız Polineziyası, Uollis və Futunanın müstəqillik tərəfdarları Qoşulmama Hərəkatının müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə prinsipial mövqeyinin etibarlılığını bir daha təsdiqləyib və vurğulayıblar. Azərbaycan Respublikasının paytaxtı Bakıda müxtəlif dekolonizasiya hərəkatlarının fikir mübadiləsi nəticəsində bu xalqların gələcəyini, hətta uzunmüddətli perspektivdə sağ qalmalarını təhdid edən müstəmləkəçilik siyasətinin zərərli olduğu vurğulanıb. Bəyanatı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Dekolonizasiya və Sosial Emansipasiya Hərəkatından Moris Pindard, Sindi Polüks, Jan-Viktor Kastor, Martinikanın Azadlığı Partiyasından Fransis Karol, Suveren Martinika Uğrunda Demokratlar və Ekoloqlar Hərəkatından Klodet Düamel, "Tavini Huiraatira no te Ao Maohi" partiyasından Oskar Temaru, Antoni Geros, Leon Tefo, Ella Tokaragi, Yeni Kaledoniyada Kanak və Sosialist Milli Azadlıq Cəbhəsindən Rok Vamytan və Maqali Tinqal imzalayıblar.



Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib ki, Fransanın hazırkı dövlət başçısı Emmanuel Makronun prezident olduğu 6 illik müddətə nəzər salsaq, onun verdiyi qərarların ölkədə vəziyyətin gərginləşməsinə, xalqın etirazlarına səbəb olduğunu görərik: "Bir neçə ay əvvəl Fransada pensiya yaşının artırılmasına qarşı etirazlarda Bordo bələdiyyəsinin binası yandırıldı. Daxili İşlər Nazirliyinin məlumatına görə, yalnız bir gün ərzində Fransada bir milyondan çox insan küçələrə çıxıb. Özünü demokratiya, insan hüquq və azadlıqlarının tərəfdarı kimi göstərən Fransada polis paytaxtda nümayişçilərə qarşı gözyaşardıcı qazdan istifadə etmişdi. Minlərlə etirazçı həbs olunmuş, yüzlərlə polis xəsarət almış, inzibati binalar, avtomobillər yandırılmışdı. Bununla yanaşı, minlərlə insanın iştirakı ilə Fransanın bir neçə şəhərində keçirilən aksiyalarda nümayişçilərlə polis arasında toqquşmalar baş vermişdi.

Ç.Qənizadə onu da bildirib ki, Fransada iğtişaşlar davam edir və hadisələrin qarşısının alınmasına 45 mindən çox polis cəlb olunub. Hüquq mühafizə orqanları tərəfindən ölkə daxilində milli, irqi və dini nifrət zəminində çoxsaylı hadisələr, cinayətlər törədilir. Etirazların qəddarlıqla yatırılması ölkədə insan hüquqlarının kobud şəkildə pozulmasından xəbər verir. Bu da Emmanuel Makronun Fransa polisinə verdiyi əlavə səlahiyyətlərin nəticəsidir. Fransada baş verən zorakılıq halları dünya ictimaiyyətinin diqqətini cəlb edib. Baxmayaraq ki, bu antidemokratik hadisələrə Avropa İnsan Haqları İnstitutları tərəfindən dərhal reaksiya verilib, hələ konkret nəticə yoxdur. Bundan əvvəl isə beynəlxalq ictimaiyyət daha bir zorakılığın şahidi olmuşdu.

Bir sözlə, Fransa özünün yanlış və qanlı siyasətinin qurbanı olmaqdadır. Təbii ki, bu ölkənin gələcəyi yoxdur. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, Makron Fransanın törətdiyi müstəmləkə cinayətlərinə görə soyqırıma məruz qalan xalqlardan üzr istəməli və terror siyasətini, eləcə də terrorçu dövlətləri dəstəkləməkdən əl çəkməlidir, əks halda Fransa bir neçə yerə parçalanacaq.

**İ.ƏLİYEV**

Təhlil

# “Ukrayna-Gürcüstan münasibətlərinin pozulmasında Rusiya maraqlıdır”



“Ukrayna ilə Gürcüstan arasında münasibətlər gərginləşməkdə davam edir. Gürcüstan Xarici İşlər Nazirliyi Ukraynanın Gürcüstan səfirinə məsləhətləşmələr üçün Tiflisə qayıtmaq tövsiyəsini münasibətlərin kəskinləşməsinin ekstremal forması adlandırıb”. Bunu ”Alyans” strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov ”Səs” qəzetinə açıqlamasında deyib.

Abutalıb Səmədov bildirib ki, məsələ ilə bağlı Gürcüstan XİN-in yaydığı bəyanatda bildirilib: ”Xarici İşlər Nazirliyi Ukrayna hakimiyyətinin Gürcüstan səfirini məsləhətləşmələr məqsədilə ölkə ərazisini tərk etmək qərarından dərin narahatlığını ifadə edir. Bu hərəkət diplomatik münasibətlərin kəskinləşməsinin ifrat formasıdır və təəssüf ki, rəsmi Kiyev dost dövlətə və xalqa qarşı bu addımı atır. Ukrayna hakimiyyətinin göstərdiyi səbəb bu qərarı xüsusilə anlaşılmaz edir. Strasburq Məhkəməsinin qərarı məhkum Mixeil Saakaşvilinin sağlamlıq vəziyyəti ilə bağlı fərziyyələrə son qoyub və bu, Mixeil Saakaşvilinin hüquqlarının dövlət tərəfindən qorunmasının ən yüksək standartlara uyğunluğunu bir daha təsdiq edir. Bu cür hadisələrin fonunda Ukrayna hakimiyyətinin qərarı iki ölkənin strateji münasibətlərinə əhəmiyyətli dərəcədə xələl gətirir və suveren dövlətin daxili işlərinə birbaşa müdaxiləni ifadə edir ”.

A.Səmədov onu da bildirib ki, Ukrayna Xarici İşlər Nazirliyinin sabiq prezidenti Mixail Saakaşvilinin səhhəti ilə bağlı, Gürcüstan hakimiyyətinin ona göstərdiyi hüquqazidd münasibətlə əlaqədar Gürcüstan səfirini öz ölkəsinə məsləhətləşmələr üçün göndərməsi diplomatiyada ən kəskin addımlardan sayılır: ”Bunun kökündə şübhəsiz ki, təkcə Mixail Saakaşviliyə olan münasibət dayanmır. Baxmayaraq ki, Saakaşvili Ukrayna vətəndaşıdır və bu səbəbdən Ukraynanın belə mövqe tutması tamamilə əsaslıdır. Ancaq Ukrayna-Gürcüstan münasibətləri son bir ildə addım-addım gərginləşməyə başlayıb və Gürcüstanın Rusiyaya yaxınlaşmaq cəhdləri, Rusiya ilə münasibətləri qaydaya salmaq istiqamətində addımları Ukraynada çox kəskin narazılıq doğurdu. Göz qabağındadır ki, Gürcüstan Rusiya ilə konfrontasiya siyasətinin ona xeyir verməyəcəyini gördü, anladı ki, Qərb hələ uzun müddət onun Abxaziya və Cənubi Osetiya ilə bağlı problemini həll eləmək fikrində deyil, Avropa İttifaqı Gürcüstanın qəbulu məsələsini uzatmaqda davam eləyəcək. Bu səbəbdən Tiflis Rusiyaya yaxınlaşmaqdan başqa yol görmədi. Baxmayaraq ki, elə əvvəlcədən Bdizina İvanişvili və onun rəhbərlik elədiyi qurum Rusiyameyilli hesab olunurdu. Lakin ilk dövrlər bu iddiaları sübut eləyəcək elə bir ciddi addım atılmamışdı. Artıq Rusiyaya meyillilik göz önündədir. Doğrudur, kəskin addımlar atılmasa da, hər halda, Gürcüstanın Rusiya əleyhinə sanksiyalara qoşulmaması çox ciddi nəticələrə gəlmək imkanı verir. Ukrayna-Gürcüstan münasibətlərinin pozulmasında maraqlı olan və bundan qazanclı çıxacaq tərəf isə şübhəsiz Rusiyadır. Rusiya Ukraynaya qarşı koalisiyanı genişləndirmək istəyir. Baxmayaraq ki, bu koalisiyada son dərəcə az dövlət var və onları, hətta koalisiya adlandırmaq da mümkün deyil. Ancaq hər halda, Ukraynanı dəstəkləməyən dövlətlərin sayının artması və MDB məkanında Qərbə ən çox meyl eləyən Gürcüstanın belə mövqe tutması təbiidir ki, Rusiyanın maraqlarına cavab verir, Moskvanın mövqelərini möhkəmləndirir və Rusiya bu hadisələrdən ən ciddi nəticə gözləyən ölkədir.

Gürcüstan Xarici İşlər Nazirliyinin ilkin reaksiyası da göstərir ki, onların da geri çəkilmək fikri yoxdur və bu münasibətlər çox güman ki, diplomatik münasibətlərin pozulmasına qədər gətirib çıxara bilər. Bundan da Rusiya faydalanacaq, Gürcüstan şübhəsiz ki, itirəcək. Çünki nə qədər Rusiyaya yaxınlaşsa da, onun Abxaziyanı və Cənubi Osetiyanı qaytarmaq fikri hələ görünmür və çox güman ki, tam tərkibdə keçmiş Gürcüstan ərazilərini geri qaytarmaq mümkün olmayacaq”.

**GÜLYANƏ**

# Bina evləri zəlzələ zamanı nə dərəcədə təhlükəlidir?

## *EKSPERT AYDINLIQ GƏTİRDİ*

**İki gün öncə Bakıda baş vermiş zəlzələ və daha əvvəl Türkiyədə minlərlə insanın ölümünə səbəb olmuş zəlzələdə minlərlə yaşayış binasının dağılması Azərbaycanda da insanların bina evlərində yaşamaqdan qorxmasına və təşvişə düşməsinə səbəb olub. Bəs bina evləri zəlzələ zamanı nə dərəcədə təhlükəlidir?**







Bu barədə daşınmaz əmlak və inşaat üzrə ekspert Elnur Azadov SİA-ya açıqlama verib: ”Son baş verən zəlzələdən sonra seysmik baxımdan baş verəcək problemlər aktual olub. Əslində, yeni tikilmiş binalarda bu kimi problemlər yoxdur. Çünki həmin binalar 2007-ci ildən sonra FHN-nin Tikintiyə Nəzarət Agentliyinin ciddi nəzarəti altında inşa olunur, dövlət tərəfindən istismara qəbul olunur”.

O, qeyd edib ki, istisna hallar da var və həmin evlər yaşayış üçün təhlükəli sayılır: ”İstisna hallar 60-ya yaxın binadır ki, onlar istismara qəbul edilməyib və həmin binalarda yaşayış var. O ki qaldı köhnə yaşayış fonduna, 1970-ci illərdən öncə inşa olunmuş yaşayış fondu istismar müddəti bitdiyinə görə qismən yararlı, qismən təhlükəli və yararsız sayılır. Çünki o vaxtı inşa olunan binaların istismar müddəti orta hesabla 40-50 il üçün nəzərdə tutulub. Lakin həmin evlərin bu gün nə dərəcədə təhlükəli olub-olmaması ilə bağlı hansısa bir komissiya olmadan ümumi rəy vermək olmaz. Yalnız bir rəy var. Bu barədə birinci mikrorayonda FHN təhlil aparıb. Orada olan 1700-dən çox sakinin yaşadığı 40-a yaxın binalar var və həmin binalara artıq FHN-nin müvafiq sınağından və yoxlamalarından sonra rəy verilib və Nazirlər Kabinetinin qərarı ilə həmin birinci mikrorayonda olan 5 mərtəbəli binalar yaşayış üçün qismən təhlükəli və az yararlı və ya yararsız hesab edilir. Başqa ölkələrdə bu kimi 5 mərtəbəli binalarla bağlı dövlət tərəfindən həlləki heç bir qəti rəy yoxdur. Bəzi binaların xüsusi qeydiyyata alınması kimi istisna hallar ola bilər. Amma şəhər və rayonlarda neft ərazilərində tam qəzalı və ya qismən qəzalı çox mənzilli binalar var və o binalarda yaşamaq təhlükəsiz sayılmır”.



**Elçin Bayramlı**

# Elimizin toy kimi bir adəti vardı...

### Toylarımız insanların bəhsə-bəhs yerinə, öz imkanlarını başqalarına nümayiş etdirmə məkanına çevrilib

Xalqımızın qədim adət-ənənələri arasında toylar özünəməxsus yer tutur. Milli toylarımızın özüməxsus gözəllikləri, zəngin ənənələri, mənəvi keyfiyyətləri var. Bunlardan biri də yemək-içmək süfrəsidir. Budəfəki mövzumuz da elə toylarımızdakı yemək mədəniyyəti ilə bağlıdır.

Qədim toylarımızda da qonaqlara müxtəlif növ milli yeməklər təklif olunub. Lakin süfrə heç də toyun əsas atributu sayılmayıb. Hazırda isə toylarda əsas məsələ yemək-içməkdir. Süfrələrin üstündə lap nağıllarda deyildiyi kimi quş südü, can dərmanı- hər şey var. Məşhur filmdə deyildiyi kimi, süfrəni elə doldururlar ki, barmaq basmağa yer qalmır...

Bu yemək ki var- bu, bizim yaralı yerimizdir. İctimai müzakirələrdə hamı Avropa ölkələrini, Rusiyanı, Yaponiyanı... misal gətirir, ”onlar bizdən ağıllıdır, toyda çox sadə süfrə açırlar, bizim kimi 30-40 cür yemək vermirlər” deyir, lakin həmin adamların təşkil etdikləri toya gedəndə görürsən ki, özü başqalarından daha böyük həngamə çıxarıb.

Hər kəs bir-birinin bəhsinə girib daha ”ağır” stol açmaq istəyir. Masalarda planetimizin Antraktida istisna olmaqla bütün materiklərindən gətirilmiş saysız-hesabsız nemətlər düzülür. Bununla fəxr edən toy sahibi heç düşünmür ki, bu həngaməni öz gücünə yox, qonaqların puluna həyata keçirir.

Yəni, masanın qiyməti haqda qabaqcadan informasiya sızdırılır və qonaqlar da məcbur olub həmin qiymətdən bir az da artıq pul yazdırırlar ki, bəylə-gəlinə bir kömək olsun. Lakin deyir, sən saydığını say, gör şadlıq evinin sahibi, qadın salonunun sahibi, musiqi qrupu, video və foto-operatorlar... nə sayır.

Daha bir problem isə ondan ibarətdir ki, ”stolun üstünə nə düzülübdürsə, hamısından təam edilməlidir” prinsipi ilə yaşayanlar çoxdur. Toya gələrkən bəziləri sanki birinci dəfədir yemək görürlərmiş kimi, o qədər yeyirlər ki, nəfəs ala bilmirlər. Axı atalar yaxşı deyib: ”Saman sənin deyil, samanlıq ki, sənindir”.

Təəssüf ki, bunu anlayanlara az rast gəlirik- masanın üstünə çox növdə yemək düzülübsə, bu o demək deyil ki, hər kəs bunların hamısından yeməlidir. Bu ona görədir ki, kim daha çox nəyi sevirsə ondan yesin və ya kiməsə həkim hansısa qidaları qadağan edibsə, o yeməyə bir şey tapa bilsin.

Əksər restoranlarda 10-15 çeşiddə yemək, 30-40 çeşiddə çərəz, şirniyyat və salat təklif olunur. Burada bir neçə paket olur- toy sahibinin paketlərdəki yeməkləri dəyişdirmək, menyudan çıxarmaq hüququ yoxdur, lap çıxartsa da pulunu ödəməlidir. Həm də minimum menyu və yer sayı var ki, ondan aşağı olmaz.

İş o yerə gəlib ki, indi toya çağrılan adamın qanı it qanına dönür. Orta statistik vətəndaşımız ayda 2-3 toya gedərsə aylıq maaşının azı yarısından keçməlidir. Bəs yarım ay necə dolanacaq? Özü də bu işgəncə kiminsə lovğalanması üçün baş verir.

Toya gələn qonaqların siyahıya yazdırdığı məbləğ, əslində, yeni evlənənlərə çatmalıdır. Bu pulla yeni ailə quranlar heç olmasa öz evləri üçün çatışmayan nələrisə ala bilər. Amma bu pullar şadlıq sarayının sahibinə çatır.

Hətta bəzən, heç toya yazılmış pullar şadlıq sarayının xərcini ödəməyə belə çatmır. Və toy sahini borca düşür. Hətta elə hallar olub ki, şadlıq sarayının pulunu ödəyə bilmədiyi üçün bəy girov saxlanılıb.

Müasir toylar özünüreklam yarışına döndərilib. Kasıbından tutmuş, ta varlısına qədər hamı öz övladının toyunda yarışa girirmiş kimi süfrələrə 10-15 növdə yemək, onlarla növdə salat, çərəz və içkilər, ekzotik nemətlər qoydurur.

Olmaz ki, onun əvəzinə xərclənən vəsaiti daha məntiqli məsələlərə yönəldək? Məsələn, toyda 2-3 cür yemək verib, qalan pulları onların hansısa problemlərini həll etməsi üçün özlərinə saxlayaq?

Toylarda problem təkcə yemək-içmək deyil. Sarsıdıcı səs terrorundan tutmuş, müxtəlif çoxnövlü pul tələlərinə kimi hər şey toy sahibinin və qonaqların zərərinə işləyir. Burada ictimai qınaq mexanizmi işləməyəcək. Çünki bunu edən elə həmin ictimaiyyətdir, öz-özlərini qınayası deyillər ha. Yalnız inzibati metodlarla bu biabırçılığın miqyasını heç olmasa azaltmaq olar.

# Mobil bəla: hər yenilik bir sondur

## Dünya əhalisinin 60 faizi onun əsiridir və bu məhkumluqdan məmnundur

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*











Əlimizdən yerə qoymadığımız, dünənki modeli köhnə hesab edib, sabahkı modeli əldə etmək üçün pul yığaraq işbazların dəyirmanına su tökürük, xəbərimiz yoxdur. Sağlamlığımızı qurban verdiyimiz mobil telefonların yaydığı təhlükəli xəstəliklər barədə qələmə aldığımız bu yazıda fərqində olmadan verdiyimiz qurbandan və mobil telefonların təhlükəsindən bəhs edəcəyik.

### İlk mobil cihaz

İlk mobil telefonun ixtiraçısı olan amerikalı Martin Koper olub, o Motorola şirkətinin mühəndisi idi. Mobil telefonu o 1973-cü ildə kəşf edib. Amma mobil telefonun satışa çıxarılması 10 il çəkdi, çünki mobil telefonun işləməsini təmin etmək üçün mobil şəbəkə yaradılmalı və stansiyalar inşa edilməli idi. İlk mobil aparat bir kilodan bir qədər artıq olub, 25 sm. uzunluğunda idi, cəmi 20 dəqiqə enerji saxlaya bilirdi. İxtiraçısı sonralar bu barədə danışanda "yaxşı ki, ağırlığı baxımından onu çox əldə saxlamaq olmurdu" deyərək, mobil cihazların yaydığı xəstəliklər barədə deyilənləri təsdiqləmiş oldu.

Avropa Telekommuniyasiya Standartları Komitəsi 1982-ci ildə GSM-i, yəni "Global Sistems Mobile" şirkətini yaratdı. GSM-in mərkəzi hesab edilən Finlandiyada 1991-ci ildə ilk mobil telefon Nokia 1011 model telefon istehsalı edilir və 4000 dollara satışa çıxarılır. Beləliklə, dünya bəşərliyyətin yeni ixtirası və gələcək bəlası ilə tanış oldu. Bu illər ərzində mobil telefon çox dəyişdi, görünüşünə, çəkisinə, modelinə görə xeyli inkişaf etdi. Daha nazik, daha kiçik, daha çox enerji saxlayan, daha yaraşıqlı telefon istehsal etmək üçün istehsalçı şirkətlər indi bir-biri ilə yarışa girib.

Azərbaycanda ilk mobil rabitə xidməti göstərən şirkət isə Bakcell olub. İlk istifadəyə verilən mobil telefonların sim kartı olmurdu, telefona qeydiyyatlı olan nömrə mobil cihaza ötürülən siqnal vasitəsi ilə işləyirdi. Ölkəmizə gətirildiyi ilk vaxtlardan bu günədək mobil cihazlara maraq səngiməyib, əksinə, cəmiyyətimiz hər gün bir az da çox onun əsirinə çevrilir. Məktəbli uşaqdan təqaüdçülərədək hamımızın cibində gəzdirdiyi mobil telefon əslində sağlamlığımızı əlimizdən alır, yeni xəstəliklərin yaranmasına səbəb olur. Onların yaydığı elektromaqnit radiasiya beyin şişi, müxtəlif növ xərçəng xəstəlikləri, kişilərdə sperma sayında azalma, beyində bərpaolunmayan hüceyrələrin məhvi kimi bir çox xəstəliklər yaradır.

Məlumat üçün qeyd edək ki, hazırda mobil telefonların 70 faizi Çində istehsal edilir. Beynəlxalq təşkilatlardan birinin Çində keçirdiyi sorğu nəticəsində respondentlərin 70 faizi mobil telefonsuz yaşaya bilmədiyini, ingiltərəli gənclərin 69 faizi isə telefondan asılı olduğunu etiraf edib.

2000-ci ildə dünya əhalisinin yalnız 12 faizi mobil telefon istifadəçisi idisə indi 60 faizdən çoxu, təxminən 5 milyard insan smartfonlardan istifadə edir. Digər tərəfdən, dünya əhalisinin demək olar ki, 67 faizi ağıllı və ya olmayan istənilən növ mobil telefonuna sahibdir.

### Hamilələr və uşaqlar təhlükə altındadır

Tibb elminə görə insan beyninin inkişaf mərhələsi 25 yaşadək davam edir. Nəzərə alsaq ki, zəmanəmizin uşaqları mobil telefonla hələ ana bənindəcə tanış olurlar, 9 ay anasının sayəsində o şüalanmaya məruz qalır və doğulan kimi evdəki insanların sayı qədər mobil telefon şüası altında yaşamağa başlayır, o zaman problemin nə qədər erkən başlamasının fərqinə vararıq.

Hamiləlik dönəmində mobil telefondan istifadə məsləhət görülmür. Çünki hamiləliyin ilk 3 ayında radiasiya daha təhlükəli olaraq uşaqsalmalara belə səbəb ola bilər, orqanizm güclü olub yarımçıq hamiləliyin qarşısını aldığı təqdirdə isə körpələrdə radiasiyanın mənfi təsirləri qalır.

Mobil telefon istifadəsinə görə dünya ölkələri arasında ən yüksək pillələrdə qərarlaşan Rusiyadakı telefon sevgisi alimləri narahat edib və bir-birinin dalınca araşdırmalar aparırlar. Rus alimlər mobil telefon istifadə edən 5-12 yaş arası uşaqlar üzərində 5 illik bir araşdırmanı yekunlaşdıranda məlum oldu ki, nəticələr olduqca narahatlıq doğurandır. Mobil telefon istifadə edən uşaqların beyin inkişafında axsama müşahidə edilib, habelə onların məlumatları qavramasında gerilik, diqqət dağınıqlığı, əsrimizin bəlası hesab edilən autizm kimi xəstəliklərə düçar olması da məlum olub.

Amerikalı və danimarkalı alimlər 1990-cı illərin sonunda doğulmuş olan 13 min uşağı araşdırdıqdan sonra təyin etdilər ki, hamiləlik zamanı gündə 2-3 dəfə mobil telefon istifadə edərkən doğulan uşaqda davranış pozuqluğu ehtimalı 54 faiz yüksəlir. Risk, uşaq mobil telefonla 7 yaşından əvvəl tanış olsa 80 faizə qədər yüksəlir. Ətraf aləmi ilə uyğunlaşma problemi 49, hiperaktivlik vəziyyəti 35, yoldaşları ilə problemli ünsiyyət qurma vəziyyəti 34, habelə ruhi-psixoloji baxımdan problemli olması nisbəti 25 faiz artır. Rəqəmlər qorxuludur, deyilmi?

### 3 radiasiya növündən biri mobil telefondur

Radiasiya ilə adətən, 3 formada qarşılaşırıq, bunlardan biri diş və ağciyər rentgeni zamanı olur, ikinci xərçəng xəstəliyinin müalicəsi zamanı kimyaterapiyaya məruz qalanda olur, üçüncü radiasiya qarşılaşması isə mobil telefon, internet, tv, mikrodalğalı sobalar və bu kimi cihazlardır.

Beynəlxalq Xərçəng Araşdırma Agentliyi (IARC) isə çoxdan mobil telefonların və onların stansiyalarının yaydığı şüaların yaratdığı elektromaqnit sahələri təhlükəli elan edərək kanserogen ehtiva edən 2-B qrupuna daxil edib. Bu səbəbdən də inkişaf etmiş ölkələrdə mobil stansiyaların qüllələrinin olduğu yerlərdə yaşayış məntəqələri olmur.

Mobil telefonun ilk 24 saatda orqanizmə verdiyi zərərləri sıralasaq - görmə problemləri, ürək narahatlığı, yaddaş pozğunluğu və beyin şişi yaratma ehtimalı, güclü stress və yorğunluq, eşitmə problemləri, qulaqlarda küy, diqqət dağınıqlığı, yarımçıq hamiləlik, qan hüceyrələrinin balansının pozulması, baş ağrıları və gicəllənməsi, immunitet sisteminin pozulması kimi problemləri yaza bilərik.

Əgər siz 10 ildir mobil telefondan istifadə edirsinizsə o zaman indi sadalayacaqlarımız elə sizə də aiddir. Yüksək təzyiq, genetik strukturun pozulması, kişilərdə sperma sayının azalması, ağ qan xərçəngi, dəri xərçəngi, qan dövranının pozulması. Həkimlər deyir ki, hər gün yarım saat mobil telefonla danışmaq sizi 10 il içində xərçəngin ən ağır formasına yoluxdura bilər. Gündə 1 saat mobil telefonla danışmaq bu müddəti 5 ilə endirir.

### Özümüzü necə qorumalı?

Ekspertlər avtomobil idarə edərkən telefonla danışmağı qətiyyətlə qadağan edir. Belə ki, telefona cavab verən sürücü həm danışığa diqqətini yönəldərək yola nəzarəti itirir, həm də telefonun yaydığı radiasiya sayəsində operativ qərar qəbul etmə, çətin situasiyadan asanlıqla çıxma, manevr etmə qabiliyyətlərini itirir. Araşdırmalara görə mobil telefon ən çox gecələr zərərlidir, ona görə də çalışın yuxulu ikən telefonla danışmayın, yaxşı olar ki, gecələr mobil cihazınızı bağlayasınız. Mobil telefonunu gecələr balışının altına qoyub yatanlar isə beyin xərçənginin ən birinci qurbanları siyahısına liderlik edir.

Nəzərə alın ki, telefona zəng daxil olan zaman şüalanma 50 faiz çoxalır. Məhz buna görə telefonu bədəninizə yaxın yerdə saxlamayın, əl çantanızda, iş masanızda saxlasanız radiasiyadan bir qədər qurtulmaq mümkündür. Son illər kişilərdə sonsuzluğun artmasına bir səbəb kimi də mobil telefonlar göstərilir. Belə ki, kişilər adətən telefonu şalvar cibində saxladığı üçün sperm sayında azalma olur. Qadınlar telefonu adətən çantada saxladığı üçün radiasiyadan nisbətən qorunmuş olur. Yol gedərkən mobil telefondan istifadə məsləhət görülmür, çünki hər dəfə ötürücü stansiya dəyişdikcə bədənə 50 dəfə çox enerji yüklənir.

PS: Dünyanın rabitə nəhənglərindən olan AT&T üçün işləyəndə mobil telefonunun sağlamlığa heç bir zərərini olmadığını deyən məşhur professor Georgi Karlo işdən çıxandan sonra qələmə aldığı məqaləsində deyir: "Labarotoriyada aparılan təcrübələr nəticəsində öyrəndik ki, mobil telefon radiasiyası insanın genetik kodlarını pozur"...

**Lalə Mehralı**

SƏS
7 iyul
2023-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# 11 il məktəbə get, oxuma-yazma bilmə

*23 nəfər məzun nə oxuya bilir, nə də yaza*



9-cu və 11-ci sinif şagirdləri arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər və ya ümumiyyətlə, oxuyub-yazmağı bacarmayanlar da aşkar olunub. Bu barədə "Abituriyent" jurnalının 12-ci nömrəsində məlumat verilib. Qeyd edilib ki, 2022-ci ilin nəticələrinə görə, 9-cu sinif şagirdləri arasında 21 nəfər, 11-ci sinif şagirdləri arasında 2 nəfər oxuyub-yazmağı bacarmayıb.

"Bu cür halların imtahan rəhbərlərinin əksəriyyətinin protokollarında qeyd olunmamasını nəzərə alsaq, yuxarıda göstərilən faktların, əslində, daha çox olduğunu ehtimal etmək olar. Rayonlar üzrə oxumağı və yazmağı bacarmayan 9-cu sinif şagirdlərinin sayı belədir: Masallı rayonunda 4 nəfər, Goranboy, Gədəbəy və Quba rayonlarının hərəsində 2 nəfər, Abşeron, Astara, Cəlilabad, Kəlbəcər, Lənkəran, Lerik, Saatlı, Xocalı, Yardımlı rayonlarının, Bakı, Mingəçevir şəhərlərinin hərəsində 1 nəfər. 11-ci sinif şagirdlərindən oxumağı və yazmağı bacarmayanlar isə Ağdam və Qobustan rayonlarından olub", jurnalda qeyd olunub.

Zənnimcə, ötən illərlə müqayisədə "2" qiyməti alan şagirdlərin sayının artmasına səbəb olan əsas amil pandemiyadır. İki il onlayn təhsil sistemi ilə öyrənən uşaqlar, əslində, bildiklərini də unutdular. Onlayn təhsil şagirdlərin bilik və bacarıqlarına əksər hallarda mənfi təsir göstərdi. Hazırda orta məktəblərimizdə təxminən 1.6 milyon şagird təhsil alır.

Təhsil sistemimiz elədir ki, Dövlət İmtahan Mərkəzi (DİM) şagirdlərin bilik və bacarıqlarını bir neçə mərhələ olmaqla yoxlayır. Bunlardan biri buraxılış, biri sınaq, biri də qəbul prosesidir. Hər il 9-cu və 11-ci siniflər üçün olduqca çox sınaq imtahanları təşkil edilir, təyin olunmuş vaxtlarda buraxılış imtahanları keçirilir. Bu imtahanlarda da zəif yazanlar, imtahan kağızını ağ verənlər də olur.

Hesab edirəm ki, buraxılış imtahanlarının nəticələrinə görə şagirdlərin bilik səviyyəsini ölçmək də doğru sistem deyil. Bir imtahan onların bilik səviyyəsini ölçə bilər, lakin imtahan ərəfəsindəki fiziki-psixoloji vəziyyət, həmin günkü əhval-ruhiyyə də nəticələrə təsir göstərir. Həmin gün göstərdiyi performans şagirdin nəticəsi deməkdir, əla qiymətlərlə oxuyan şagird imtahan günü ürəkbulanma, yaxud da stress yaşasa imtahan nəticəsi də aşağı düşəcək. Üstəlik, kodlaşdırmanı düzgün apara bilməyən, üsulu bilməyən, imtahana gecikənlər də statistikaya düşür.

Həmçinin, sirr deyil ki, xüsusilə, rayonlarda adı məktəbdə gedən, amma özü dərsə getməyən uşaqlar da var. Təsərrüfatla məşğul olmaq istəyir, yaxud buna məcbur edilir, lakin adı məktəb qeydiyyat jurnalından pozulmur. Belə şagirdlər də oxuyub-yazma bilməyən şagirdlərin statistikasına düşür. Məktəbdə "3" qiyməti alan, amma məktəbə getməyən şagirdlər çoxdur. Bu qiymət bəzən rüşvət, bəzən tanışlıq, bəzən də insanlıq xətrinə yazılır. 11 il məktəbə gedib-gələn, lakin oxumağı və yazmağı bilməyən şagird valideynindən çox müəllimin qurbanıdır. Çünki təlim məktəbin, savad öyrətmək, hərf tanıtmaq müəlllimin işidir. Bunun üçün valideyni günahlandırmaq məsuliyyətdən qaçmaq deməkdir.

Lakin oxuma-yazma bilməyən şagirdlərin bu qabiliyyətinə xəstəlik də mane ola bilər. Belə ki, disleksiya adlı problem var ki, öyrənmədə çətinlik çəkənlərdə rastlanır. Eynşteyn, Motsart, Bethoven, Leonardo Da Vinçi kimi bir çox dahinin də yaşadığı disleksiya problemi oxumağa mənfi təsir etdiyi üçün ibtidai təhsil zamanı gözə çarpır. Öyrənməyə təsir edən bu problem uşağın özünə inam hissini itirməsinə də səbəb ola bilir. "Disleksiya" yunan sözü olub "dis"-pozqunluq,"leksiya"-kəlimə (kəlimə pozğunluğu) sözünün birləşməsindən əmələ gəlib.

Disleksiya olan uşaqlar məktəbdə dərslərdən geri qaldıqları üçün özünə inam hisslərini itirə bilirlər. Onlarda digər psixoloji problemlərin də ortaya çıxması mümkündür. Bundan əlavə disleksiya problemli uşaqlar incə düşüncəli və həssas olduqları üçün məktəbdəki yaşıdları tərəfindən mənfi reaksiyalara məruz qaldıqları zaman oxumağa olan bütün həvəslərini itirirlər.

Uşağın valideynləri və ya müəllimləri disleksiya haqqında məlumatlı olmadıqda uşağı günahlandıra bilərlər. Bunun üçün də disleksiya nə deməkdir?, Oxumaqda çətinlik çəkməni necə aradan qaldırmaq olar?, Disleksiya problemi olan uşağa necə dəstək olmaq olar? kimi sualların cavabları tapılmalıdır. Uşağın həqiqətən disleksiyalı olması, yaxud sadəcə oxumaq istəməməsi aydınlaşdırılmalıdır. Uşaqlar hər zaman qayğı istəyirlər, disleksiyalı olsun, savadlı olsun, savadsız olsun, fərq etməz. Valideyn övladından dərs tələb edərkən bunu nəzərə almalı, məktəblə, müəllimlərlə əlbir olmalıdır.

***Lalə Mehralı***

# "Smartfonlar ikinci "mən" olublar"

*MÜTƏXƏSSİS DANIŞDI*



"İnsanların öz smartfonlarına bağlı olmaları son illərin ən böyük trendlərindən biridir. Təbii ki, burada bağlılıq yaradan məqam telefondakı proqramlardır. Amerikada aparılan araşdırmalara görə, insanlar oyandıqdan 15 dəqiqə ərzində öz telefonlarını yoxlayır, gələn məlumatlara və s. baxırlar. Bundan başqa gün ərzində orta hesabla insanlar 50 dəfədən çox telefonlarını yoxlayırlar. Əslində isə bu rəqəm daha çoxdur, lakin burada ortalama nəticələr qeyd edilib". Bu sözləri SİA-ya açıqlamasında İnformasiya texnologiyaları üzrə mütəxəssis Fərid Kazımov deyib.

Onun sözlərinə görə, xaricdə bu istiqamətdə detoks proqramlar mövcuddur: "Yəni insanlardan iki-üç gün müddətinə haradasa dincəldiyi zaman telefonları alınır ki, onlar rahatlana bilsinlər. Çünki telefon istənilən bütün zamanlarda bizim yanımızda olur. Biz telefona bağlı deyilik, telefonda olan proqramlara bağlıyıq. Ümumiyyətlə bu gün smartfon olmadan insan həyatını təsəvvür etmək mümkün deyil. Çünki smartfonlar bizim üçün ikinci "mən" olublar. Təbii ki, dünyanın istənilən yeri ilə anında əlaqə qura bilmək baxımından smartfonların rolu danılmazdır. Lakin bu müsbətlər özünü yalnız balanslı istifadə edildiyində göstərə bilir. Bu isə sadəcə özümüzdən aslıdır. Smartfonların ən böyük problemlərindən biri də aludəçilik yaranan insanlarda iş keyfiyyətini də aşağı salır".

## Di Mariya "Benfika"da

"Yuventus"dan ayrılan argentinalı futbolçu Anhel Di Mariyanın yeni klubu açıqlanıb. "Real"ın keçmiş forvardı "Benfika"ya (Portuqaliya) keçib. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Azad agent olan oyunçu ilə 1 illik müqavilə imzalanıb.

Qeyd edək ki, 35 yaşlı futbolçu 2007-2010-cu illərdə də "Benfika"da çıxış edib. O, 2010-cu ildə Madrid 'Real"ına transfer olunmuşdu.




Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000